**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# İNTERNET FOLKLORU: NƏZƏRİ-METODOLOJİ KONTEKST VƏ FOLKLORİK MƏNA YARADICILIĞI

İxtisas: 5719.01 – Folklorşünaslıq

Elm sahəsi: Filologiya

İddiaçı: **Hikmət Valeh oğlu Quliyev**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

Elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir.

Elmi məsləhətçilər: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

AMEA-nın həqiqi üzvü, texnika elmləri doktoru, professor
**Rasim Məhəmməd oğlu Əliquliyev**

Rəsmi opponentlər: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Teymur Həşim oğlu Kərimli**
Filologiya elmləri doktoru, professor
**Ramazan Oruc oğlu Qafarov**
Filologiya elmləri doktoru, professor
**Asif Abbas oğlu Hacıyev**
Filologiya elmləri doktoru, dosent
**Elmira Fikrət qızı Məmmədova-Kekeç**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI FOLKLOR İNSTİTUTU

Dissertasiya şurasının sədri: ______________ Filologiya elmləri doktoru, professor
**Seyfəddin Gülverdi oğlu Rzayev**

Dissertasiya şurasının elmi katibi: ______________ Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: ______________ Filologiya elmləri doktoru, professor
**Əfzələddin Dağbəyi oğlu Əsgərov**

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir dünya folklorşünaslığının aktual və yeni problemlərindən birini İnternetdə – virtual sosial mühitdə meydana gələn folklor yaradıcılığı proseslərinin sosial-antropoloji kontekstdə araşdırılması təşkil edir. Sosial-antropoloji folklorşünaslıq sosiumun dinamik və kommunikativ təbiətini, lokal, multikultural və qlobal dəyərlərini, situativ və dəyişkən xüsusiyyətlərini fərd və kollektivin üzvi əlaqəsi kontekstində araşdırmağa imkan verən metodoloji alətlər sisteminə malikdir. Bu elmi-nəzəri yanaşmalar kontekstində ənənəvi folklorla yanaşı, virtual folklorun öyrənilməsi folklorşünaslıq qarşısında yeni perspektivlər vəd edir. Xüsusilə də, Alan Dandes[1], Dan Ben Amos[2], Volter Onq[3], Eliot Orinq[4], Simon Bruner[5], Trevor Blank[6], Robert

---

[1]Dundes, A. What is folklore // "The Study of Folklore", 1965, – pp. 1-3; Dundes, A. Who are the Folk? // "İnterpreting Folklore". – Bloomington: İndiana University Press, – 1980, – p. 1-19; Dundes, A. Folkloristics in the Twenty-First Century (AFS Invited Presidential Plenary Address, 2004 // "The Journal of American Folklore", – 2005, – Vol. 118, – No. 470, – pp. 385-408; Dundes, A. Getting the Folk and the Lore Together // "Meaning of Folklore: The Analytical Essays of Alan Dundes". – University Press of Colorado, – 2007, – pp. 273–285.

[2] Ben-Amos, D. Toward a Definition of Folklore in Context // "Journal of American Folklore", – 1971, № 84, – p. 3-15.

[3] Ong, W.J. Orality and Literacy The Technologizing of the Word / W.J.Ong. – Routledge: Taylor & Francis e-Library, – 2005, – 203 p.

[4] Oring, E. Just Folklore: Analysis, İnterpretation, Crtique / E.Oring. – Los Angeles: CA Cantilever, – 2012, – 388 p; Oring, E. To Explain Tradition // "Journal of Ethnology and Folkloristics", – 2021, – 15 (2), – pp. 1-18.

[5] Bronner, S. J. Introduction: The Analytics of Alan Dundes / In Meaning of Folklore: The Analytical Essays of Alan Dundes. – University Press of Colorado., – 2007, – pp. 1-35; Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 21-66; Bronner, S.J. Explaining Traditions: Folk Behavior in Modern Culture // S.J.Bronner. – The University Press of Kentucky, – 2011, – 530 p; Bronner, S.J. Practice Theory in Folklore and Folklife Studies // "Folklore", – 2012, – Vol. 123, – No. 1, –pp. 23-47; Bronner, S.J. İnspirational İnsights: The Problematic Vernacular // "Journal of Ethnology and Folkloristics", – 2022, – 16 (2), – pp. 1-15.

Qlen Hovard[7], Violetta Kravçik-Vasilevska[8], Rassel Frank[9], Antoni Bakutelli[10] və digər alimlərin folklorun sosial bazisi və sosial şərtləri, şifahi və yazılı mədəni ənənə, performans, şəhər folkloru (əfsanələri),

---

[6] Blank, T.J. Examining the Transmission of Urban Legends: Making the Case for Folklore Fieldwork on The Internet // "Folklore Forum", – 2007, – 37.1, – p. 15-26; Blank, T.J. Toward a Conceptual Framework for the Study of Folklore and the Internet // "Folklore and the Internet: Vernacular Expression in a Digital World". Edited by Trevor J. Blank. – Utah: Utah State University Press Logan, – 2009, – p. 1-20; Blank, T.J. Pattern in the Virtual Folk Culture of Computer-Mediated Communication // In "Folk Culture in the Digital Age: the Emergent Dynamics of Human İnteraction". Edited by Trevor J. Blank. – Logan: Utah State University Press, – 2012, – p. 1-24; Blank, T.J. Folklore and the Internet: The Challenge of an Ephemeral Landscape // "Humanities 7", – 2018, – No. 2, – 50; Blank, T.J., Howard R.G. İntroduction: Living Traditions in a Modern World // İn "Tradition in the Twenty-First Century: Locating the Role of the Past in the Present". Edited Trevor J. Blank, Howard R.G. – Logan: Utah State University Press, – 2013, – p. 1-21.

[7] Howard, R.G. Toward a Theory of the World Wide Web Vernacular: The Case for Pet Cloning // "Journal of Folklore Research", – 2005, – Vol. 42, – No. 3, – pp. 323-360; Howard, R.G. Electronic Hybridity: The Persistent Processes of the Vernacular Web // "Journal of American Folklore", – 2008, – Volume 121, – Number 480, – Spring, – pp. 192-218; Howard, R.G. Vernacular Media, Vernacular Belief Locating Christian Fundamentalism in the Vernacular Web // "Western Folklore", – Volume 68, – 2009, – Number 4, – pp. 403-429; Howard, R.G. Vernacular Authority Critically Engaging "Tradition" / Tradition in the Twenty-First Century Locating the Role of the Past in the Present. Edited by Trevor J. Blank and Robert Glenn Howard. – Logan, – Utah State University Press, – 2013, – pp. 72-100.

[8] Krawczyk-Wasilewska, V. Folklore in the Digital Age / Collected Essays. Foreword by Andy Ross. – Lodz: Lodz University Press, – 2016, – 128 p; Krawczyk-Wasilewska, V. e-Folklore in the Age of Globalization // "Fabula 47", – 2006, – pp. 248-253.

[9] Frank, R. Newslore: Contemporary Folklore on the Internet / R.Frank. – Univer. Press of Mississippi, – 2011, 224 p; Frank, R. Caveat Lector: Fake News as Folklore // "The Journal of American Folklore", – 2015, – Vol. 128, – No. 509, – pp. 315-320.

[10] Buccitelli, A B. Performance 2.0: Observations Toward a Theory of the Digital Performance of Folklore / Ed. T.J.Blank. Ed. "Folk Culture in the Digital Age: The Emergent Dynamics of Human İnteraction". – Utah State University Press, – 2012, – pp. 60-84.

kompüter və folklor, media və folklor, virtual mühit və folklor, rəqəmsal mədəniyyət və folklor və s. istiqamətlərdəki tədqiqatları İnternet folklorunun spesifik xüsusiyyətlərinin araşdırılması üçün fundamental elmi-nəzəri bazanın formalaşmasında mühüm rol oynamışdır. Azərbaycandilli virtual mühitdə meydana gələn folklor proseslərinin də sosial-antropoloji kontekstdə öyrənilməsi, eləcə də sosial qrup və kollektivin folklorik yaradıcılıq dinamikasının təhlili olduqca aktualdır.

Azərbaycan folklorşünaslığında sosial-antropoloji yanaşmalar əsasında İnternet folklorunun sistemli şəkildə öyrənilməsi təcrübəsi mövcud deyildir. Ümumiyyətlə, "İnternet folkloru", "virtual folklor", "şəbəkə folkloru" və s. kimi anlayışlar Azərbaycan folklorşünaslığı üçün yeni terminlərdir. Bununla bərabər, milli elmi mühitimizdə müasir dövrün folklor proseslərini "klassik folklor", "arxaik folklor", "müasir folklor"[11], "post folklor"[12], "şəhər folkloru"[13], "bazar folkloru"[14] və s. kimi aspektlərdən diqqət mərkəzinə gətirən bəzi araşdırmalar da mövcuddur. Lakin müasir dövrün folklor proseslərinin təhlili sosial-antropoloji yanaşmanın nəzəri-metodoloji bazası əsasında sistemli şəkildə aparılmadığından rəqəmsal gerçəklik, rəqəmsal mədəniyyət, virtual folklor, şəbəkə folkloru, internet folkloru və s. kimi mühüm məsələlər, demək olar ki, öyrənilməmişdir. Dissertasiyada araşdırdığımız mövzunun ən mühüm aktuallıq səbəblərindən biri məhz müasir folklorşünaslığın sosial-antropoloji mənzərəsinin müəyyənləşməsində fundamental rol oynayan İnternet folklorşünaslığının milli elmi mühitdə ayrıca elmi

---

[11] Əsgər, Ə. Ön söz / Azərbaycan folkloru antologiyası. XII kitab. Zəngəzur folkloru. Topl. V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, tərt. ed. Ə.Əsgər, M.Kazımoğlu – Bakı: Səda, – 2005 – s. 13-28.

[12] Bayat, F. Folklordan postfolklora // "Dədə Qorqud" jur., – 2018, № 63, – s. 39-51.

[13] Bayat, F. Müasir folklorun bəzi məsələləri // "Dədə Qorqud" jur., – 2017, – № 60, – s. 46-53.

[14] Bayat, F. Pazar folkloru // "Uluslararası Halkbilimi Araştırmaları Dergisi", – Manifesto sayısı, – Cilt 2, – Sayı 2, – 2019, – s. 5-16.

istiqamət kimi mövcud olmamasıdır. Həmçinin bu istiqamətdəki tədqiqatlar yalnız İnternet folklorunun deyil, bütövlükdə folklorşünaslığın müasir paradiqmada dərkinə böyük töhfələr verə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın tədqiqat obyektini ilk növbədə qlobal informasiya şəbəkəsi kontekstində Azərbaycandilli virtual sosial mühitdə meydana gələn rəqəmsal folklor prosesləri və İnternet folkloru faktları təşkil edir. İnternet folkloru çərçivəsində problemin araşdırılması təkcə folklor nümunələrini deyil, eyni zamanda performativ diskurs kontekstində folklorik kommunikasiya faktlarını, deyim və ifadə şəkillərini, virtual dil və nitq nümunələrini də tədqiqata cəlb etməyi zəruri etmişdir.

Tədqiqatın predmetini isə Azərbaycandilli virtual mühitdə, virtual sosial ünsiyyət kontekstində meydana çıxan folklorik məna yaradıcılığının, ənənəvi sosial mədəni mühitdən virtual kommunikativ platformaya transformasiyanın, yeni trend və tendensiyaların, rəqəmsal folklorik faktların araşdırılması təşkil edır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi İnternet folklorunun nəzəri-metodoloji problemləri kontekstində Azərbaycandilli virtual mühitdə meydana gələn folklor yaradıcılığı proseslərini araşdırmaqdır. Məlumdur ki, İnternet folkloru çərçivəsində meydana gələn vahid semiotik proseslərin təsiri ilə Azərbaycandilli virtual mühitdə ənənəvi obrazlarla yanaşı, qlobal obraz və motivlər, mövzu və məzmunlar ortaya çıxmışdır. Eyni zamanda milli identikliyin göstəricisi olan dəyərlərin (folklorun) rəqəmsal dünyaya transformasiyası zərurəti, rəqəmsal-texnoloji mühitdə meydana gələn folklor faktlarının metodoloji analizi problemi tədqiqatın qarşısında bir sıra məqsəd və vəzifələr formalaşdırmışdır. Beləliklə, dissertasiyada qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Ənənəvi sosial mədəni mühitdən virtual kommunikativ platformaya transformasiya kontekstində folklorun nəzəri-metodoloji aspektlərinin araşdırılması;
- Sosial-demoqrafik proseslər, sənayeləşmə, şəhərləşmə, modernləşmə, rəqəmsallaşma və virtuallaşma kontekstində

folklorun forma və məzmununda baş verən dəyişikliklərin öyrənilməsi;
- Ənənəvi kollektiv mədəni yaddaşın mətnlərarası və medialararası əlaqə çərçivəsində reaktuallaşmasının virtual sosio-psixoloji və sosio-mədəni dinamikasının araşdırılması;
- Kritik sosial proseslərin və dramatik situasiyaların çoxsəsli karnavalistik sosial ünsiyyət diskursunda – vahid semiotik proseslər zəminində təhlil edilməsi;
- Texno-kulturoloji və sosio-texnoloji şəraitdə rəqəmsal folklor resurslarının çoxparametrli intellektual analizinin elmi-nəzəri problemlərinin araşdırılması;

**Tədqiqatın metodları.** Tədqiqatda tətbiq edilən metodlar, əsasən, iki qrupa ayrılır. Birincisi, İnternet mühitində meydana gələn folklorik verilənlərin (*data*) toplanılması və analizi (*data mining*) üzrə metodikalar;

İkincisi, İnternet folklorunun nəzəri-metodoloji problemləri və Azərbaycandilli virtual folklor mühitində meydana gələn folklorik yaradıcılıq proseslərinin analizi üzrə metodikalar (*sosial-antropoloji folklorşünaslıq yanaşmaları, psixoanaliz və s.*).

Azərbaycandilli virtual kommunikativ mühitdə yaranan folklorik faktların qeydə alınması və toplanılması üçün İnternetdə informasiyanın ölçülməsi və analizi ilə bağlı *"data mining"* texnologiyaları üzrə dünyada mövcud olan metodiki alətlərdən (*Google Trends, Twitter Trend Topics and Hashtags*) bəhrələnilmişdir. Folklorik faktların semantik analizində isə, ümumilikdə, sosial-antropoloji yanaşmaların və psixoanalitik folklorşünaslığın metaforik-simvolik mənaların interpretasiyası təcrübəsindən, strukturalizm və semiotikanın mətn və sosial-kommunikativ prosesləri öyrənmə üsullarından istifadə olunmuşdur.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada müdafiəyə aşağıdakı müddəalar çıxarılmışdır:

1. Sosial-antropoloji yanaşma klassik folklorşünaslığın nəzəri-metodoloji çərçivəsini genişləndirdiyindən kommunikativ dinamika, sosial-demoqrafik proseslər və elmi-texnoloji yeniliklərin təsiri ilə

xalq biliyində meydana gələn dəyişikliklərin təhlilinə geniş imkan yaradır.

2. Ənənəvi folklordan İnternet folkloruna keçid rəqəmsal mərhələdə folklorşünaslığı yeni dilemma qarşısında qoymuşdur və bununla əlaqədar olaraq folklorun təməl prinsip və anlayışlarının "reviziya" olunması, yeni yanaşma və baxışların ortaya çıxmasına zərurət yaranmışdır.

3. Qlobal informasiya şəbəkəsinin tərkib hissəsi kimi Azərbaycandilli virtual mühitdə ənənəvi folklor materiallarından fərqli təbiətə malik folklor yaradıcılığı proseslərinin ortaya çıxması virtual folklor mühitini folklorik mənalar, virtual sosial ünsiyyət və sosio-psixoloji reaksiyaların mənbəyi kimi araşdırmağı aktuallaşdırmışdır;

4. Kritik sosial proseslər və dramatik situasiyalar (*pandemiya, müharibə*) kontekstində kollektiv mədəni reaksiyanın ifadəsi kimi ortaya çıxan İnternet folkloru, bütövlükdə Azərbaycan sosio-mədəni mühitinin cari hadisə və olaylara metaforik-simvolik münasibətini araşdırmaq üçün mühüm əhəmiyyət kəsb edir;

5. Yeni texno-kulturoloji və sosio-texnoloji şəraitdə rəqəmsal folklor resurslarının klassik folklorşünaslıq metodlarından fərqli, multidissiplinar kontekstdə çoxparametrli intellektual analizi həm tətbiqi, həm də nəzəri folklorşünaslıq üçün yeni perspektivlər açır.

**Tədqiqatın elmi yeniliyi.** İnternet folklorunun nəzəri-metodoloji problemləri və Azərbaycandilli virtual mühitdə folklorik məna yaradıcılığının sosial-antropoloji kontekstdə araşdırılması bir sıra elmi yeniliklərin ortaya çıxarılmasına şərait yaratmışdır:

– Sosial-antropoloji yanaşmanın klassik folklorşünaslığın nəzəri-metodoloji çərçivəsini genişləndirməsi kontekstində folklorun müasir sosial-mədəni proseslərlə əlaqəsi öyrənilmiş və Azərbaycan folklorşünaslığına yeni elmi-nəzəri və tətbiqi istiqamətlər daxil edilmişdir;

– Folklorun sosial-antropoloji kontekstdə xalq ("folk") və bilik ("lore") paradiqmalarında dərkindən irəli gələn nəzəri-metodoloji yanaşmalar əsasında həm "folk"-un sosial qurum kimi təşkil olunmasında, həm də "lore"-nin məzmun və formasının

müəyyənləşməsində sosial-demoqrafik proseslərlə bərabər, sosial media texnologiyalarının rolu aşkarlanmışdır;

–Ənənəvi folklordan İnternet folkloruna keçid kontekstində İnternet folklorunun şifahilik, anonimlik, variantlılıq və ənənəvilik xüsusiyyətlərinin spesifikası üzə çıxarılmışdır;

–Ənənəvi folklorun mövcudluq şərtlərini təmin edən söyləyici-mətn-auditoriya üçlüyünün İnternet mühitindəki ekvivalentləri araşdırılmış, İnternetin interaktiv ünsiyyət və iştirakçı sosial mühit (web 2.0. texnologiyası) şərtləri daxilində xalq biliyinin yaranmasında iştirak edən subyektlərin həm aktiv söyləyici, həm də dinləyici ("prosumer" – söyləyici//dinləyici) olduğu müəyyənləşdirilmişdir;

– Müəyyən olunmuşdur ki, Azərbaycandilli İnternet folkloru yarandığı mühitin sosio-psixoloji xarakterinə, fəlsəfi-ideoloji spesifikasına müvafiq olaraq, ənənəvi düşüncə konseptləri ilə oppozisional münasibət səviyyəsinə malikdir. Bu oppozisionallıq sosial protest – ənənənin inkarı, ənənədən qaçma və ənənəyə alternativ yaratma davranışlarını özündə ehtiva etdirir;

–Azərbaycandilli virtual folklor mühitində Albert Eynşteyn obrazının meydana çıxdığı aşkarlanmış, bu obrazın müdriklik konsepti çərçivəsində Molla Nəsrəddin obrazının emosional bazasında formalaşdığı üzə çıxarılmışdır;

–Müəyyən olunmuşdur ki, Azərbaycandilli virtual folklor mühitində Molla Nəsrəddin obrazı müasir sosial-mədəni proseslərdə öz aktuallığını qoruyub saxlamış, virtual sosial şərtlər çərçivəsində multikultural, multilinqvistik və hipertekstual spesifika qazanmışdır;

–Dədə Qorqud obrazının rəqəmsal performativ diskursda desakralizasiya olunduğu, yeni idiokulturoloji faktorlar rakursundan mənalandırıldığı üzə çıxarılmışdır;

–Müəyyən olunmuşdur ki, ənənəvi düşüncədə inanc və stereotiplərə bağlı olan seyid obrazı İnternet folklorunda ənənənin inkarı kontekstində ironik planda məna qazanmışdır;

–Azərbaycandilli virtual folklor mühitinin metaforik-simvolik mənalar üzrə sosial-antropoloji və psixonalitik təhlili nəticəsində müəyyənləşdirilmişdir ki, virtual mühitdə yeniyetmə və gənc

oğlanlar arasında mövcud olan "ata zarafatı" motivi və Koroğlu obrazı ilə bağlı komik və ironik ifadələr Edipal kontekstdə ata-oğul konfliktindən qaynaqlanır və oğulların atalara qarşı sosial protestinin folklorik təzahürüdür;

– Kritik sosial proseslər və dramatik situasiyalar kontekstində İnternet folklorunun təhlili nəticəsində müəyyən olunmuşdur ki, qlobal səviyyədə rezonans doğuran hadisə və olaylar sosial media texnologiyalarının təsiri ilə vahid semiotik proseslərə rəvac verir və folklorik effektlərin ortaya çıxmasını stimullaşdırır;

– Texno-kulturoloji və sosio-texnoloji şəraitdə rəqəmsal folklor resurslarının, o cümlədən İnternet folklorunun toplanılması, təsnifi və çoxparametrli analizi özünə münasibətdə multidissiplinar yanaşmalar tələb edir və bu tipli bir sıra məsələlərin təhlilində İKT-nin imkanlarından istifadənin geniş perspektivləri vardır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** İnternet folklorunun nəzəri-metodoloji problemləri və Azərbaycandilli virtual mühitdə meydana gələn folklorik məna yaradıcılığının araşdırılmasına həsr olunmuş dissertasiya işi folklora sosial-antropoloji yanaşmanın və informasiya nəzəriyyəsinin elmi-nəzəri qənaətlərinin tətbiqi kontekstində hazırlanmışdır. Bu mənada tədqiqat yeni texno-kulturoloji mühitdə meydana gələn folklorun mahiyyətinin dərk olunması üçün nəzəri baza rolunu oynaya bilər.

Tədqiqat işi müasir texno-kulturoloji mühitin sosial-mədəni aspektdən öyrənilməsi ilə maraqlananlar, eyni zamanda ali məktəblərin tələbələri üçün dərs vəsaiti kimi praktiki əhəmiyyətə malikdir. Dissertasiya rəqəmsal platformada meydana gələn folklor resurslarının toplanılması və intellektual analizi ilə bağlı praktiki işlərin həyata keçirilməsi üçün də istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatda əldə edilmiş qənaətlər Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının tələblərinə uyğun olaraq yerli və beynəlxalq nəşrlərdə çap etdirilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.**

Dissertasiya AMEA Folklor İnstitutunun Mifologiya şöbəsində yerinə yetirilmişdir.

Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 09 fevral 2018-ci il il tarixli *(protokol №1)* və Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirmə Şurasının Humanitar Elmləri üzrə Problem Şurasının 29 sentyabr 2021-ci il tarixli *(protokol №2)* protokollarının qərarları ilə təsdiq olunmuşdur.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.**

Dissertasiya işi giriş (23 279), I fəsil (90 630), II fəsil (83 560), III fəsil (114 873), IV fəsil (81 830), V fəsil (67 439), Nəticə (12 028) və Ədəbiyyat siyahısından ibarət olmaqla, ümumi həcmi (473 639) işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"də** mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsədi, vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və quruluşu barəsində məlumat verilir.

Dissertasiyanın **"Folklor və İnternet: problemin nəzəri-metodoloji aspektləri"** adlanan birinci fəslində sosial-antropoloji folklorşünaslıq yanaşmaları çərçivəsində İnternet folkloru anlayışı, folklorik məna yaradıcılığı məsələsi, informasiya-kommunikasiya texnologiyaları (İKT) və folklor, media və folklor, texnologiya və mədəniyyət münasibətləri təhlilə cəlb olunmuşdur.

Birinci fəslin *"Problemin nəzəri-metodoloji qoyuluşu: İnternet folkloru anlayışı və folklorik məna yaradıcılığı"* adlanan birinci paraqrafında göstərilir ki, İnternet folklorunun bir anlayış, məfhum kimi ortaya çıxması, heç şübhəsiz ki, İKT-nin meydana gəlməsi, kompüter texnologiyalarının yaradılması, ilk öncə texnoloji qurğuların, daha sonra insanların Ümumdünya Hörümçək Toru (WEB) vasitəsilə qlobal şəbəkəyə qoşulması, intəhasız kommunikasiya imkanlarının formalaşması və sosial-mədəni proses, o cümlədən folklor yaradıcılığı üçün əlverişli mühitin yaranması ilə xarakterizə olunur. Hər şeydən əvvəl, nəzərə almalıyıq ki, akademik folklorşünaslıqda müxtəlif terminlərlə adlandırılan bu anlayışın –

*internet folkloru, şəbəkə folkloru, virtual folklor, rəqəmsal folklor, e-folklor* və s.-nin bazisində texnoloji gerçəklik dayanır. Lakin bu texnoloji gerçəklik başlanğıcdan etibarən insanla, cəmiyyətlə sıx bağlı olduğundan sosio-texnoloji mühitə çevrilməklə texno-kulturoloji proseslərin meydana çıxmasına rəvac vermişdir. İnternet folkloru adından da göründüyü kimi, insanlar, cəmiyyətlər, dövlətlər, millətlər, xalqlar arasında kommunikasiyanın *"apogeyi"* [15] hesab olunan İnternetin – qlobal şəbəkənin üzərində qurulmuşdur. Odur ki, İnternet folkloru anlayışının dərki və izahı ilk növbədə bəşəriyyətin keçdiyi tarixi mərhələlər kontekstində kommunikasiya texnologiyalarının meydana gəlməsi və həmin texnologiyaların cəmiyyətin, sosial münasibətlərin formalaşmasına, sosial-mədəni mühitə və yaradıcılığa təsiri ilə birbaşa bağlıdır. Çünki bəşəriyyət hazırkı çağa qədər epoxal dəyişikliklərə səbəb olan elmi-texnoloji tərəqqinin təsiri ilə şifahi mədəni mühitdən yazılı mədəniyyətə, oradan isə elektron sivilizasiyaya keçid etmişdir. Lakin epoxal dəyişmələr və bütün sferalarda gedən transformasiyaların əsas hərəkətverici qüvvəsi elmi-texnoloji inkişafın nəticəsi olan kommunikasiya faktorudur. V.Onq, haqlı olaraq, mədəniyyətin tipologiyasının müəyyənləşdirilməsində kommunikasiya faktoruna (*səs-söz; ağız-qulaq; yazı-göz*) diqqət yönəldir[16].

İKT-nin meydana gəlməsi və şifahi biliyin ötürülmə kanallarının genişlənməsi təkcə xalq biliyinin formasında deyil, eyni zamanda məzmununda da dəyişikliklər yaratmışdır. Belə bir vəziyyət Alan Dandesin sosial-antropoloji baxışları işığında İnternet folkloru problemini təhlil etməyi zəruri edir. Alan Dandes xalqı "sosial qrup" kimi konseptləşdirərək yazırdı: " *"Xalq" termini ən azı bir ümumi faktoru paylaşan hər hansı bir insan qrupuna aid edilə bilər*"[17]. Xalq və biliyə bu rakursdan yanaşma İnternet mühitində meydana gələn

[15] Krawczyk-Wasilewska, Violetta, Folklore in the Digital Age: Collected Essays. Foreword by Andy Ross. Lodz: Lodz University Press, 149 p.

[16] Ong, J.W. Sözlü ve Yazılı Kültür: Sözün Teknolojileşmesi / J.W.Ong. – İstanbul: Metis Yayınları, – 2014, – s. 20

[17] Dundes, A. What is folklore // "The Study of Folklore". – Englewood Cliffs, N.J. : Prentice Hall, – 1965, – p. 2.

sosial-mədəni prosesləri, folklorik məna yaradıcılığını, kibersosial qrupları öyrənmək üçün geniş perspektivlər yaradır. Məlum olur ki, sosial media informasiyası ilə "qidalanan" insanın ixrac etdiyi bilik də, şübhəsiz ki, həm məzmun, həm də forma baxımdan öz qaynağına bənzəməkdədir. Belə bir şəraitdə vaxtilə kəndin ("kəndlinin"), daha sonra şəhərin ("şəhərlinin") real sosial mühitin "güzgüsü" olan folklor, hazırda virtual-sosial mühitin ("virtual insanın") gerçəkliyinin təcəssümüdür.

Birinci fəslin "*İnformasiya-kommunikasiya texnologiyalarının inkişafı kontekstində folklor: şifahi ənənəvi mühitdən virtual kommunikativ mühitə transformasiya"* adlanan ikinci paraqrafında informasiya inqilablarının – şifahi ünsiyyətin meydana gəlməsi, yazının kəşfi, kitab çapının ortaya çıxması, kompüterin yaradılmasının sosial-mədəni mühitə təsiri, konkret olaraq, kollektiv biliyin ifadəsi, ötürülməsi və yayılmasında rolu kimi məsələlər araşdırılmışdır. Burada göstərilir ki, şifahi nitq şifahi yaddaşa əsaslandığından onun zaman və məkan baxımından miqyası olduqca məhdud olmuş, yazının kəşfi isə "*informasiyaların qeydiyyatı, uzun müddətə yadda saxlanması, məkan və zamana görə yayılması üçün... geniş imkanlar yaratmaqla* [18] həm də fərdiliyə, fərdi üslub və mövqeyin ortaya çıxmasına təkan vermişdir[19].

Kitab çapının meydana gəlməsi isə kollektiv təcrübə və biliyin daha yaxşı qorunması və tirajlanmasını asanlaşdırmaqla onun həm məkan, həm də zaman baxımından daha uzaq məsafələrə çatmasına, daha böyük kütlələrə ötürülməsinə şərait yaratdı.

Təbii ki, kommunikasiyanın inkişafı sahəsində ən fundamental kəşf kompüterin və İnternetin meydana gəlməsi ilə xarakterizə olunur. İnternetin çox sürətlə genişlənməsi, virtual kommunikasiya imkanlarının artması virtual aləmin meydana gəlməsinə, insanın bu mühitdəki təcrübəsinin formalaşması isə virtual reallığı özündə əks

---

[18] Əliquliyev R.M., Valehov C.F., Mahmudov R.Ş. İnternet–jurnalistikanın formalaşmasının bəzi aspektləri. Ekspress-informasiya. İnformasiya cəmiyyəti seriyası. Bakı: "İnformasiya Texnologiyaları" nəşriyyatı, 2008, 32 səh.

[19] Abdulla K. 2009. Mifdən Yazıya və yaxud gizli Dədə Qorqud. Bakı: Mütərcim, s. 16.

etdirən mədəniyyətinin yaranmasına gətirib çıxarmışdır. İnternet folkloru, əslində, dünyanı və özünü anlamağa çalışan insanın virtual gerçəkliyi müxtəlif məna və metaforalarla, assosiasiya və işarələrlə qavramasının və kollektiv yaradıcılıqda ifadə etməsinin nəticəsidir.

Birinci fəslin *"Texnoloji inkişaf kontekstində folklorun taleyi: "neqativ" və "pozitiv" baxış"* adlanan üçüncü paraqrafında göstərilir ki, folklorşünaslıqda müasir texnoloji yeniliklər və sosial media şəraitində "folklorun taleyinin necə olacağı", "folklor yaradıcılığının davam edib-etməyəcəyi, yaxud folklorun məhv olacağı" və s. kimi problemlər üzrə konseptual baxışlar və yanaşmalar irəli sürülmüşdür. T.Blank *"Folklor və internetin araşdırılmasının konseptual əsasları"*[20] adlı məqaləsində Riçard Dorsona istinadən yazır ki, *"çox az müddətdən sonra nə folklor, nə də onu öyrənmək üçün folklorşünasa ehtiyac olmayacaq"*[21]. Təbii ki, belə bir münasibət zamanla öz təsdiqini tapmadı və Kirşenblatt-Gimblettin müasir dövrdə folklora hər yerdə – *"mediada və şəhərdə"* rast gəlinməsi ilə bağlı baxışının doğru olduğunu sübut etdi[22]. Riçard Dorsonun folklorun məhv olaraq aradan qalxması fikrini tənqid edən Kirşenblatt-Gimblett yazır ki, "*folklor texnologiya, xüsusilə də kommunikasiya texnologiyaları hesabına yaranmış və müəyyənləşmişdir"*[23]. Dan Ben Amos isə folklorun araşdırma mövzusunun yoxa çıxması ilə əlaqədar olaraq onu öyrənən elmin də həmin taledən qaçmasının mümkün olmadığını yazırdı[24]. Dan Ben Amosun və Riçard Dorsonun folklora belə

---

[20] Blank, Trevor J. 2009. Toward a Conceptual Framework for the Study of Folklore and the Internet. Folklore and the Internet: Vernacular Expression in a Digital World. /Edited by Trevor J. Blank/ Utah State University Press Logan, Utah, 290 p. 1;

[21] Dorson, Richard M. 1972. Introduction: Concepts of Folklore and Folklife Studies // In Folklore and Folklife: An Introduction, ed. Richard M. Dorson, Chicago: University of Chicago Press, p. 41.

[22] Kirshenblatt-Gimblett, Barbara, 1998. "Folklore's Crisis." Journal of American Folklore 111: p.302

[23] Kirshenblatt-Gimblett, B. Folklore's Crisis // "Journal of American Folklore", – 1998, – No. 111, – p. 309

[24] Ben-Amos, D. Toward a Definition of Folklore in Context // "Journal of American Folklore", – 1971, № 84, – p.14

münasibətini tənqid edən Alan Dandes yazır: *"Amma folklor məhv olmur, əksinə, elektron poçt və internet üzərindən yayılmanın inkişafı hesabına müasir dünyada canlı və diri qalmağa davam edir"*. Dan Ben Amosun folklorun meydana gəlməsindəki "üz-üzə ünsiyyət" şərtinə qarşı S.Bruner *rəqəmsal folklor "üz-üzə qarşılıqlı əlaqə"-dən doğan folklor fikrinə etiraz yaratmaqdadır"*[25] deyirdi.

Beləliklə, şəhərləşmə, sənayeləşmə, bütövlükdə texnoloji inkişaf folklor yaradıcılığına nəinki neqativ təsiri olmuş, əksinə, folklorun diferensiallaşması, yeni mövzu və məzmunlar kəsb etməsi, yeni forma və qəliblərdə ifadə olunması, daha sürətli yayılması və ötürülməsi üçün həyati əhəmiyyət kəsb etmişdir[26].

Dissertasiyanın *"Kommunikativ proseslər kontekstində folklorun sosial dinamikası: kənddən şəhərə, şəhərdən virtual dünyaya "köç""* adlanan dördüncü paraqrafında diqqətə çatdırılır ki, kommunikasiya imkanlarının genişlənməsi, ünsiyyət kanallarının artması folklorun sosial dinamikasının dəyişməsinə təsir edir. Təməlində texnoloji tərəqqi dayanan bu prosesin aparıcı "drayveri", heç şübhəsiz ki, kommunikativ dinamikadır.

Kommunikativ dinamika çərçivəsində folklor proseslərinin "kənddən şəhərə, şəhərdən isə virtual dünyaya doğru istiqamətlənməsi" məsələsi şərti xarakter daşıyır. Çünki folklor sinxron olaraq həm kənd, həm şəhər, həm də virtual mühitdə təzahür etmək potensialına, fasiləsiz mövcud olma spesifikasına malikdir. Sosial-demoqrafik proseslər, miqrasiya və məskunlaşma şəkillərinin dəyişməsi fonunda yeni məkanlara "köç" edən insanın mahiyyətində baş verən dəyişikliklər, təbii ki, folklor yaradıcılığında da özünü göstərir. Odur ki, mədəni məkan olaraq kənddə yaranan folklor kənd mühitinin münasibət paradiqmasını ifadə edir. Şübhəsiz ki, "*şəhər folkloru (postfolklor) şifahi ənənənin əvvəlki formalarında mövcud*

---

[25] Bronner, S. Uygulamadaki Folklorun Bir Tanımına Doğru // Çev: Ahmet Erman Aral, – "Milli Folklor", – 2017, – Sayı 113, – s. 103

[26] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Folklor texnologiya və mədəniyyət münasibətləri kontekstində: "neqativ" və "pozitiv" baxış // "Filologiya məsələləri" jur., – Bakı, Elm və təhsil, – 2017, – № 20, – s. 329-335

*olmayan tamamilə fərqli janr və mətn çeşidlərini özündə əks etdirir"*[27]. Yəni bu mühitlərin hər birinin daxili mahiyyətindəki özəlliklər onların doğurduğu folklor korpuslarının da spesifikasında özünü göstərmiş olur.

Şəhər mühitinin informasiya qaynaqları, yəni folklor subyektləri və obrazları da fərqlidir. Şəhərdəki informasiya daşıyıcıları və ya ötürücüləri insanlardan, fərdlərdən daha çox, kütləvi informasiya vasitələridir (KİV). Düşünürük ki, media, xüsusi ilə sosial media vasitəsi kimi internet və buradakı şəbəkələr, folklorun heç bir funksiyasını sıxışdırmır, ənənəvi folklorun müəyyən janrları, aktuallığını itirir, söylənilmədikcə repertuardan kənarda qalaraq unudulur. Beləliklə, İKT-nin verdiyi imkanlar hesabına, ənənəvi, üz-üzə, real folklor proseslərinin aktuallaşdığı mühitlərə alternativlər meydana gəlmişdir. Əslində, rəqəmsal ünsiyyət texnologiyaları və platformaları kollektiv özünüifadəsinin yeni vasitələri və məkanlarıdır.[28].

Birinci fəslin *"Folklor və İnternet: ilkin nəzəri yanaşmalardan İnternet folklorunun identifikasiyası problemlərinə"* adlanan beşinci paraqrafında vurğulanır ki, XX əsrin 90-cı illərindən etibarən ictimai İnternetin genişlənməyə başlaması, elektron poçt texnologiyasının ortaya çıxması, kompüterlərin şəbəkəyə qoşulması və s. kimi proseslər folklor və internet münasibətlərinə həsr olunmuş ilkin nəzəri axtarışlarda diqqət mərkəzinə gətirilmişdir. T.Blank belə tədqiqatlar sırasında *N.K.Baym, J.T.Dorst, R.G.Hovard, Kirşenblett-Gimblett, J.Rouş* kimi alimlərin adlarını qeyd edir[29].

---

[27] Неклюдов, С.Ю. Фольклор и современность: итоги XX века // От конгресса к конгрессу: Навстречу Второму Всероссийскому конгрессу фольклористов. Сборник материалов. – Москва: Государственный республиканский центр русского фольклора, – 2010, – с. 31.

[28] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Müasir dövrün folklor prosesləri: kənddən şəhərə, şəhərdən virtual dünyaya "köç" // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", – 2018, – № 1 (52), – s. 74-83; Quliyev, H. Virtual mühitdə folklor: ənənə və kommunikasiya / H.Quliyev. – Bakı: Sabah, – 2018, – 256 s.;

[29] Blank, Trevor J. 2009. Toward a Conceptual Framework for the Study of Folklore and the Internet. Folklore and the Internet: Vernacular Expression in a

M.D.Alekseyevski internet folkloru ilə araşdırmalarda terminoloji sabitliyin mövcud olmadığını qeyd edir: *"Rus elmi ənənəsində nisbətən geniş yayılmış termin internet-folklor* və *şəbəkə folklorudur*. Həmçinin *"virtual folklor"* və "*internetlor"* terminləri də bəzən işlənir. Xarici kompaniyalarda internet "folklore" və "netlore" terminləri daha çox *"computerlore"*, "*computer folk-lore"*, "*virtual folklore"*, *"cyberlore"*, "*e-Folklore"*, "*digital folklore"* kimi populyardırlar"[30].

Ümumiyyətlə, M.D.Alekseyevski tədqiqatlarda İnternet folklorunun fərqli şəkildə təhlil olunduğunu, bəzən ənənəvi sosial mühitdə meydana gələn folklor faktlarının *"internetə yerləşdirilməsi"*, bəzən *" "kompüterçilərin" kompüterlər və internetlə bağlı professional qrupları və fəaliyyəti ilə bağlı folkloru və ənənəsini"* əhatə etməsi, bəzən "*internetdə rast gəlinən və şəhər folkloruna məxsus istənilən nümunənin İnternet folkloru hesab olunması"*, nəhayət, "*internet kommunikasiyasının rolunun prioritetliyi ... İnternet folkloru kimi əsasən şəbəkədə mövcud olan və yayılan folklor formaları"*[31] nəzərdə tutulur. Hesab edirik ki, İnternet folkloru anlayışı geniş məna çalarlarına malikdir, onu hər hansısa peşə qrupları, ənənənin transformasiyası, şəhər folklorunun davamı və s. ilə məhdudlaşdırmaq doğru deyildir. Çünki İnternet folkloru

---

Digital World. /Edited by Trevor J. Blank/ Utah State University Press Logan, Utah, 290 p. 3.

[30] Алексеевский, М.Д. Интернет в фольклоре или фольклор в Интернете? (Современная фольклористика и виртуальная реальность) // От конгресса к конгрессу: Навстречу Второму Всероссийскому конгрессу фольклористов. Сборник материалов. – Москва: Государственный республиканский центр русского фольклора, – 2010, – с. 154.

[31] Алексеевский, М.Д. Интернет в фольклоре или фольклор в Интернете? (Современная фольклористика и виртуальная реальность) // От конгресса к конгрессу: Навстречу Второму Всероссийскому конгрессу фольклористов. Сборник материалов. – Москва: Государственный республиканский центр русского фольклора, – 2010, – с. 157

virtual kommunikativ mühitdə meydana gələn həm proses, həm mexanizm, həm də folklorik məna yaradıcılığıdır[32].

Dissertasiyanın **"Ənənəvi folklordan İnternet folkloruna keçid: rəqəmsal mərhələdə folklorun təməl anlayış və prinsipləri yeni dilemma qarşısında"** adlanan ikinci fəslində yeni şəraitdə folklorun nəzəri-metodoloji paradiqmaları araşdırılmışdır.

İkinci fəslin "*"Xalq (folk) kimdir?" və "bilik (lore) nədir?" sualları ətrafında folklora yeni baxış"* adlanan birinci paraqrafında göstərilir ki, XIX əsrin ortalarında meydana çıxan "folklore" sözü həmin şəraitdə daha çox qeyri-mədəni, sivilizasiyadan kənarda yaşayan, savadsız kütlənin keçmiş haqqında təsəvvürləri kimi mənalandırılmışdır. Lakin XX əsrdə Alan Dandesin xalq məfhumunun müəyyənləşdirilməsi ilə bağlı irəli sürdüyü fundamental konsepsiya, bütövlükdə "folklore" sözünün mənasını, bu istiqamətdə baxışlar sistemini dəyişdi[33]. Alan Dandes xalq məfhumunun *"ən azı bir ortaq faktoru paylaşan hər hansı bir insan qrupu"*[34] olduğunu və həmin ortaq faktorun da peşə, dil, din və s. ola biləcəyini qeyd edir. Bu baxış, təbii olaraq, təkcə xalq anlayışına deyil, folklora – keçmiş haqqında "əntiqlər" hesab olunan mədəni məhfuma münasibəti də tamamilə dəyişdi. "Xalq" anlayışına "Xalq kimdir?" sualı ətrafında cavab axtararkən alim, həm də sözün ikinci hissəsinin, yəni "lore"nin – "biliy"in də sərhədlərini cızmış oldu. Xalqın – sosial qrupun ortaqlığının əsasında məhz şərikli bilik və maraq dayanır. A.Dandes folklora yanaşmada tətbiq olunan metodologiyaların da, əsasən *XIX əsrin sonu XX əsrin əvvəllərində formulə edildiyini* və *folklorla bağlı yeni hipotez və metodoloji*

---

[32] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Folklor və İnternet: sosial-mədəni proseslərin virtual mühitə transformasiyası problemləri // Xavəri S., H.Quliyev., Qarayev S. Folklorun funksional strukturu: multidissiplinar kontekst. – Bakı: Elm və təhsil, – 2016, – s. 192-360 s.;

[33] Dundes. A. Halk kimdir? // "Milli Folkor", – 1998, – Sayı 37, – s. 139-153

[34] Dundes. A. Halk kimdir? // "Milli Folkor", – 1998, – Sayı 37, – s. 143

*yanaşmaların*[35] çatışmazlığını vurğulayırdı. Bütün bunlar *"folklor elminin özünü də rəqəmsal mərhələyə daşımağ"*[36] ın qaçılmaz olduğunu zəruri edir[37].

İkinci fəslin *"İnternet folklorunun "şifahiliyi" məsələsi: "yazmaq", yoxsa "danışmaq"?"* adlanan ikinci paraqrafında göstərilir ki, ənənəvi kommunikativ mühitdə folklorun ifası söz, səs və ya hərəkətlə müşayiət olunur, bilik şifahi yolla ötürülür. V.Onqa görə, dilin dəyişməyən ən mühüm mahiyyəti onun "*təməldən şifahi – sözlü olmasıdır"*[38]. Hətta alim yazır ki, *"yazı heç vaxt şifahi təbiətindən əlaqəsini qopara bilməz"*[39]. Deməli, hər hansı bir folklor mətninin yazılı şəkildə olması onu folklorun şifahilik prinsipindən, sözün şifahilik təbiətindən məhrum edə bilməz. Çünki şifahi mətn kollektiv reaksiya və ortaq maraqlara söykənməsindən tutmuş, yayılma, ötürülmə, dövretmə, variantlaşma və s. parametrlərinə qədər bütün əlamətləri ilə yazılı mətndən fərqlənir. Hazırda xalq biliyinin bütün potensialı rəqəmsal texnoloji vasitələr hesabına "üz-üzə" söhbətdən daha çox, virtual ünsiyyətdə reallaşmaqdadır. Virtual kommunikasiyada xalq biliyi yazı, şəkil, rəsm, video, animasiya, fotomontaj, "caps" və s. ilə təcəssüm olunur.

---

[35] Dundes, A. Folkloristics in the Twenty-First Century (AFS Invited Presidential Plenary Address, 2004 // "The Journal of American Folklore", – 2005, – Vol. 118, – No. 470, – p. 388

[36] Blank, T.J. Toward a Conceptual Framework for the Study of Folklore and the Internet // "Folklore and the Internet: Vernacular Expression in a Digital World". Edited by T.J. Blank. – Utah: Utah State University Press Logan, – 2009, – p. 2.

[37] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Rəqəmsal mərhələdə folklorun təməl prinsiplərinə baxış: problemin "xalq (folk) kimdir?" və "bilik (lore) nədir?" sualları ətrafında qoyuluşu // Naxçıvan, "Axtarışlar" jur. (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix), – 2018, – № 3, – s. 21-29;

[38] Ong, J.W. Sözlü ve Yazılı Kültür: Sözün Teknolojileşmesi / J.W.Ong. – İstanbul: Metis Yayınları, – 2014, – s. 19

[39] Ong, J.W. Sözlü ve Yazılı Kültür: Sözün Teknolojileşmesi / J.W.Ong. – İstanbul: Metis Yayınları, – 2014, – s. 20

S.Brunerin də qeyd etdiyi kimi, *"birinin lətifə "danışmaq" üçün klaviaturadan istifadə etməsi"*[40] yazı yazmaqdan daha çox, söhbət etmək, danışmaq təəssüratını yaradır. Bu halda *"klaviatura və ekranın birləşməsindən doğan vernakular kommunikasiya"*[41] ortaya çıxır ki, bu da birbaşa olaraq təfəkkürün "danışıq", "söhbət" modelinə əsaslanır. Rus alimi M.V.Zaqidullina internet məkanındakı ünsiyyəti *"folklor təbiətli kommunikasiya"*[42] adlandırır. S.Bruner yazır ki, *"İnternet kompüter monitoru vasitəsilə ənənəni asanlaşdırır, əlaqələndirir və yaxud yaradır"*[43]. Əslində, burada söhbət ənənənin və yaxud da folklorun yaranması, yayılması və ötürülməsinin yeni reallıq – kompüter və İnternetin hesabına asanlaşmasından gedir[44].

İkinci fəslin "*İnternet folklorunda "ənənə" anlayışı: yeni ənənələrin meydana çıxması ilə ənənənin yenilənməsi arasında"* adlanan üçüncü paraqrafında diqqətə çatdırılır ki, müasir insan texno-kulturoloji mühitdə virtual ənənələrin yaradıcısına çevrilməkdədir. Çünki insan təbiəti etibarı ilə yenilik qarşısında təəccüblənməklə və heyrətlənməklə yanaşı, onu "mənimsəməyə", "özününküləşdirməyə" meyillidir. Yeniliyin qavranılması və mənimsənilməsi isə

---

[40] Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 24

[41] Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 24

[42] Загидуллина, М.В. Теория Интернет-фольклора: Коммуникация фольклорного типа и самоидентификация участников крупных форумов // Ученые Записки Казанского Университета. Гуманитарные науки, – 2015, – Том 157, – кн. 4, – с. 87

[43] Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 24

[44] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Virtual kommunikativ mühitdə folklor: şifahilik məsələsi // "Gənc tədqiqatçı" jur., – 2018, – IV cild, – № 2, – s. 151-156

mədəniyyəti *"qidalandıran"*[45] və insanı *"zamana və məkana"*[46] yerləşdirən ənənələrin yaranması ilə xarakterizə olunur. Təbii olaraq, İnternet ənənənin daha əlverişli və sürətli şəkildə *"yaranmasında" və "ötürülməsində"*[47] mühüm rol oynamaqdadır. Heç şübhəsiz ki, virtual dünyanı müəyyən prinsiplər əsasında təsnif etməklə mənimsəyən, özünə "virtual dost", "virtual sevgili", "virtual sosium" formalaşdıran müasir insan qeyri-şüuri olaraq özünü cari zamana və məkana *yerləşdirməkdədir*[48]. E.Gülüm virtual sosial şəbəkələrdəki "*otaq", "divar"* anlayışlarını *"internetə/sayta girmək", "internetdən/saytdan çıxmaq"* davranışlarını məhz "*kiberməkanın metaforikləşdirilməsi"*[49] hesab edir.

İnternetin anonimlik təbiəti hesabına rəsmi-hüquqi məsuliyyətin aradan qalxması elə bir sosio-psixoloji mühit yaradır ki, bu da öz-özlüyündə "*ənənədən kənara çıxmağa"*, keçmişin//ənənənin "*avtoritetinə alternativlərin yaranmasına"*[50], başqa sözlə, ənənənin parodik interpretasiyasına gətirib çıxarır. Bu isə bəzən ənənə ilə səsləşməyən, onu "tanımayan" yeni "ənənələrin" doğulması kimi özünü göstərir. Cari situasiya və maraqların ifadə olunması

---

[45] Bronner, S.J. Explaining Traditions: Folk Behavior in Modern Culture // S.J.Bronner. – The University Press of Kentucky, – 2011, – p. 8

[46] Bronner, S.J. Explaining Traditions: Folk Behavior in Modern Culture // S.J.Bronner. – The University Press of Kentucky, – 2011, – p. 8

[47] Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 24

[48] Blank, T.J., Howard R.G. İntroduction: Living Traditions in a Modern World // İn "Tradition in the Twenty-First Century: Locating the Role of the Past in the Present". Edited Trevor J. Blank, Howard R.G. – Logan: Utah State University Press, – 2013, – p. 6

[49] Gülüm, E. Dijital İletişim Teknolojileri Aracılı Bir Folklorik Denyim Alanı Olarak Sanal Ortam // "Milli folklor", – 2018, – Sayı 119, – s. 130.

[50] Blank, T.J., Howard R.G. İntroduction: Living Traditions in a Modern World // İn "Tradition in the Twenty-First Century: Locating the Role of the Past in the Present". Edited Trevor J. Blank, Howard R.G. – Logan: Utah State University Press, – 2013, – p. 6.

kontekstində meydana gələn folklorik faktlar həm də ənənənin *"yenilənməsi"*[51] kimi özünü göstərir[52].

İkinci fəslin *"İnternet folklorunda "anonimliyin" spesifikası: kollektiv yaradıcılıq emosiyasının müəllifliyə "iddiasızlıq" effektində təcəssümü"* adlanan dördüncü paraqrafında vurğulanır ki, İnternet folklorunun anonimliyi məsələsini təhlil etmək üçün ilk öncə Aşıq yaradıcılığının folklor təbiətini nəzərdən keçirmək lazımdır. Hesab olunur ki, aşıq yaradıcılığı nümunələrinin müəllifinin bəlli olması, eləcə də aşıqların konkret bir zaman kəsiyində yaşayıb-yaratması folklorun anonimlik prinsipinə uyğun gəlmir. Lakin nəzərə almaq lazımdır ki, *"aşıq şeiri şifahi şəkildə daha çox yayılır, variantlaşır"*[53]. Eyni zamanda aşıq şeirindəki təkrarlanmalar onu yazılı ədəbiyyatdan fərqləndirən xüsusiyyətdir[54]. Təsadüfi deyildir ki, burada musiqinin[55] xüsusi rolu, sazın sakral spesifikası[56], *"bədahətən söz demə"*[57] məsələləri xüsusi fərqləndirilir. Beləliklə, şifahi ünsiyyətin bu şəkildə işləmə mexanizmi mədəni yaradıcılığı fərddən kollektivə doğru dəyişir.

Virtual kommunikasiyanın təbiəti ilə bağlı aparılan tədqiqatlarda ünsiyyətin bu tipinin yazılı olması barədə yekdil fikir mövcud deyildir[58]. Məlum olur ki, virtual kommunikativ mühit

---

[51] Ekici, M. Geleneksel Kültürü Güncellemek Üzerine Bir Değerlendirme // "Milli Folklor", – 2008, – Sayı: 80, – s. 33-38

[52] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev. H. Virtual sosial mühitdə folklorik ənənə // "Dədə Qorqud" jur., – 2018, – № 2, – s. 79-88

[53] Həsənqızı, A. Folklorşünaslığa giriş (dərs vəsaiti) / A.Həsənqızı. – Bakı: Elm və təhsil, – 2015, – s. 214

[54] Bayat, F. XXI yüzilin sosial-iqtisadi və mədəniyyət ekologiyası paradiqmasında folklor // "Dədə Qorqud" jurn., – 2004, – № 4, – s. 58

[55] Kazımoğlu, M. Folklor həm keçmiş, həm də bu gündür (məqalələr) / M.Kazımoğlu. – Bakı: Elm və təhsil, – 2014, – s. 53

[56] Qasımlı, M. Ozan aşıq sənəti / M.Qasımlı. – Bakı: Uğur, – 2011, – s. 104

[57] Allahmanlı, M. Aşıq yaradıcılığının inkişaf mərhələləri / M.Allahmanlı. – Bakı: Elm və təhsil, – 2011, – 292 səh.

[58] Domokos, M. Folklore and Mobile Communication // "Fabula 48", – 2007, – Heft 1/2, – p. 53; Радченко Д.А. Современный кинематографический анекдот в условиях сетевой коммуникации // Первый Всероссийский конгресс фольклористов (сб. докладов). – Москва, – 2006, – Т. 3, – с. 307; Загидуллина,

rəqəmsal, yazılı, qrafik işarəli və s. olmasına baxmayaq, buradakı ünsiyyətin psixoloji prototipində şifahilik – danışmaq, söhbət etmək emosiyası dayanır. Şübhəsiz ki, virtual kommunikasiya üz-üzə ünsiyyətdən fərqli spesifikaya malikdir. Təsadüfi deyildir ki, T.Blank A.Bakutelliyə istinadən yazır ki,*"rəqəmsal performans üz-üzə ünsiyyət kontekstindən daha fərqli sosial dinamikaya malikdir"*[59] .

Əslində sosial şəbəkələrin strukturu (*İstifadəçi-İnformasiya-kommunikasiya mühiti*) folklorun üz-üzə icrasındakı tərəfləri (*Söyləyici-Mətn-Auditoriya* [60] *)* xatırladır. Lakin virtual folklor performansı *"İnternet vasitəsilə uzaqdan-uzağa və fərddən fərdə ötürülmə şəklində"* [61] özünü göstərir. İnternet istifadəçisi virtual folklor performansında həm folklor faktını yaradan, həm də paylaşan (söyləyən) kimi çıxış edir. S.Bruner bu vəziyyəti – *bilik istehsal edənlə istehlak edənin bir statusda birləşməsi*[62] kimi xarakterizə edir. Düşünürük ki, bu proses folklorik resursun çox sürətlə dəyişdirilməsinə və variantlaşmasına gətirib çıxarır. Nəticədə, cari situasiya və maraqlar kontekstində ortaya çıxan folklorik faktın ilkin mənbəyi öz əhəmiyyətini itirir. Odur ki, rəqəmsal folklor

---

М.В. Теория Интернет-фольклора: Коммуникация фольклорного типа и самоидентификация участников крупных форумов // Ученые Записки Казанского Университета. Гуманитарные науки, – 2015, – Том 157, – кн. 4, – с. 88

[59] Blank, T.J. Pattern in the Virtual Folk Culture of Computer-Mediated Communication // In "Folk Culture in the Digital Age: the Emergent Dynamics of Human İnteraction". Edited by Trevor J. Blank. – Logan: Utah State University Press, – 2012, – p. 1-24

[60] Quliyev, H. Folklor və İnternet: sosial-mədəni proseslərin virtual mühitə transformasiyası problemləri // Xavəri S., H.Quliyev., Qarayev S. Folklorun funksional strukturu: multidissiplinar kontekst. – Bakı: Elm və təhsil, – 2016, – s. 284

[61] Baki, Z.S. İnternet Folkloru/Netlore Bağlamında Sözlü Kültürün Dönüşümüne Netnografik Yaklaşımlar: Katılımcı Sözlük Örnekleri (Yüksek Lisans Tezi) / Z.S.Baki. – Gazi Universitesi Sosyal Bilimler Enstitüsü, – 2014, – s. 10

[62] Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 24

performansında yaradılan, paylaşılan və ya dəyişdirilən folklor faktları müəllifliyə "iddiasızlıq" emosiyası çərçivəsində ortaya çıxır[63].

İkinci fəslin "*İnternet folklorunda "variantlılıq": rəqəmsal texnoloji imkanlar, dinamik sosial şərtlər, cari maraq və aktual situasiyalar*" adlanan beşinci paraqrafında bildirilir ki, istər üz-üzə, istərsə də virtual ünsiyyətdə meydana gələn folklorun sabit parametrlərindən biri variantlılıqdır. Dan Ben Amosun ənənəvi folklorun variantlılığı ilə bağlı irəli sürdüyü faktorlar – *söyləyicinin peşəkarlığı, istedadı və əhval-ruhiyyəsi məsələsi*[64] birbaşa olaraq folklorun kommunikativ dinamikası ilə bağlıdır. Eyni zamanda variantlılıq barədə Alan Dandes yazır ki, *"O (yəni folklor – H.Q.) eyni auditoriyanın müxtəlif üzvləri üçün müxtəlif şey ifadə edə bilər; o eyni bir nağılçı üçün həyatının müxtəlif vaxtlarında fərqli məna daşıya bilər"*[65]. Folklorun variantlılığı ilə bağlı yuxarıda qeyd olunanları bəzi istisnalarla İnternet folkloruna da aid etmək olar.

Əvvəla, Dan Ben Amosun vurğuladığı "*üz-üzə ünsiyyət" və "birbaşa münasibət"* faktorları virtual mühitdə aradan qalxmışdır. Eyni zamanda virtual performativ akt ənənəvi folklor ifasından fərqli olaraq, məkana bağlı olmadığı kimi, konkret zaman çərçivəsinə də malik deyildir. A.Bakutellinin irəli sürdüyü *"zamansal yayılıma"*[66] anlayışı performativ aktı zamanüstü hadisə kimi xarakterizə edir. Yəni müəyyən bir folklorik fakt – tapmaca bir anda söyləndiyi və cavablandırıldığı performans çərçivəsində vahid kontekstdə ortaya

---

[63] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. İnternet folklorunda anonimlik problemi // "Dədə Qorqud" jur., – 2019, – № 2, – s. 81-94

[64] Ben Amos, D. Şartlar ve Çevre İçinde Folklorun Bir Tanımına Doğru // Halkbiliminde Kuramlar ve Yaklaşımlar. – Ankara: Milli Folklor Yayınları, – 2003, – s. 34

[65] Dundes, A. Getting the Folk and the Lore Together // "Meaning of Folklore: The Analytical Essays of Alan Dundes". – University Press of Colorado, – 2007, – p. 275.

[66] Buccitelli, A. B. Performance 2.0: Observations Toward a Theory of the Digital Performance of Folklore / Ed. T.J.Blank. Ed. "Folk Culture in the Digital Age: The Emergent Dynamics of Human İnteraction". – Utah State University Press, – 2012, – p. 76

çıxır. Lakin sosial şəbəkələrdə və forumlarda yaradılan folklorik fakt – "başlıq", "status" qeyri-müəyyən müddətə açıq qala bilir. Yəni folklorik faktın ilk icrasından xeyli vaxt keçsə də, rəqəmsal mühitdə itmədiyi üçün ona müxtəlif reaksiyalar davam edir. İnternet mühitinin sosio-texnoloji təbiəti və imkanlarından qaynaqlanan belə bir reallıq İnternet folklorunun variantlılığı məsələsinə də təsir göstərir.

Beləliklə, İnternet folklorunda variantlılıq ən geniş mənada iki səviyyədə özünü göstərir. Birincisi, ənənəvi folklora münasibətdə, ikincisi, İnternet folklorunun öz daxilində ortaya çıxan variantlılıq. İnternet folklorunun variantlılığı bəzən folklorik resursların variantlılığı ilə deyil, həmin mətni aktuallaşdıran situasiyaların, daha doğrusu, xüsusi məna verildiyi situasiyaların çoxluğu ilə özünü göstərir. Şübhəsiz ki, situasiyalar arasında ilk baxışdan əlaqə aydın görünməsə də, müxtəlif mənalar səviyyəsində bunu aşkarlamaq mümkündür[67].

Dissertasiyanın **"İnternetdə folklorik məna yaradıcılığı: virtual sosial ünsiyyət, psixoloji reaksiya və folklorik effektlər (Azərbaycandilli virtual folklor mühiti əsasında)"** adlanan üçüncü fəslində konkret olaraq, Azərbaycandilli virtual folklor mühiti burada meydana gələn folklorik faktlar, yeni trend və tendensiyalar, metaforik-simvolik mənalar kontekstində təhlilə cəlb olunmuşdur.

Üçüncü fəslin "*Virtual mühitdə Azərbaycan ənənəvi atalar sözləri və deyimləri parodik interpretasiya kontekstində"* adlanan birinci paraqrafında bildirilir ki, Azərbaycandilli virtual mühitdə yaranan atalar sözləri və deyimlər, əslində, atalar sözlərinin parodiyası – triksterik interpretasiyası kimi izah olunmalıdır. Anoloji vəziyyətlə "*Bikarçılıq böyük nemətdir", "Arvadın qocaldı, qulluqçuya yanaş", "Yazıçı qəmiş olar"*[68] kimi parodik atalar

[67] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. İnternet folklorunda variantlılıq: dinamik sosial proseslər və cari maraqlar // 6. Uluslararası Dede Korkut Türk Kültürü, Tarihi ve Edebiyyatı kongresi (20-21 Temmuz, 2023). - Iksad Global, – 2023, – s. 392- 397

[68] Molla Nəsrəddin, Molla Nəsrəddin [8 cilddə] / – Bakı: Çinarçap, – Cild 4, – 2008, – s. 128

sözlərinin – triksterik interpretasiyanın yer aldığı "Molla Nəsrəddin" jurnalında qarşılaşırıq.

İnternet atalar sözləri və deyimlər istər leksikonu, istər ifadə etdiyi məna və məzmunu, istərsə də forması baxımından ənənəvi nümunələrdən tamamilə fərqlənir. İnternetdə meydana çıxan *"qaqalar sözü"* və *"analar sözü"* əslində, atalar sözlərinin parodik interpretasiyası olub, ənənəyə metaforik-simvolik planda protestin ifadəsidir.

Azərbaycandilli virtual mühitdə meydana çıxan *"Bu günün işini sabaha saxlama, o birisi günə saxla, iki gün beynin dincəlsin", "Suyun lal axanı, adamın manitora baxanı",* Eynşteynin dilindən deyilən *"Yaxşı oğlan şortik geyinməz"* və *"Kişilər üçün ən gözəl idman arvad sözüylə oturub durmaqdı"* və s. kimi nümunələr, əslində ənənəvi kollektiv mədəni yaddaşda mövcud olan analoji deyimlərin parodiyasıdır. P.Seçkin bu tipli nümunələri "*anti atalar sözləri"*[69] kimi təhlil edir. Beləliklə, İnternet mühitinin anonimlik imkanı, istifadəçilərin əsasən gənclərdən təşkil olunması, kollektiv düşüncə və rəylərin fərdi interpretasiya və mövqe üzərindən ifadəsi, informasiya cəmiyyəti ideologiyasının fəlsəfi olaraq yeniliyə, alternativ baxış və mövqeyə söykənməsi atalar sözlərinə münasibətdə də yeni reallığın – anti-atalar sözləri, parodik atalar sözləri, ironik atalar sözlərinin ortaya çıxmasına səbəb olmuşdur[70].

Üçüncü fəslin *"Azərbaycandilli virtual mühitdə müdriklik konseptinin yeni obraz paradiqması: "Albert Eynşteyn""* adlanan ikinci paraqrafında bildirilir ki, Azərbaycandilli virtual mühitdə meydana çıxan yeni obrazlardan biri Albert Eynşteyndir. Burada Eynşteyn kollektiv düşüncəni təcəssüm etdirən müdrik obraz kimi özünü göstərir. Lakin bu müdriklik ağsaqqallıqla triksterliyin vəhdətində, ciddiliklə komikliyin kəsişməsindədir. Bu mənada

---

[69] Seçkin, P. Toplumsal Yapıdaki Değişimin Göstergesi: Anti-atasözleri // "Milli Folklor", – 2017, – Yıl 29, – Sayı 113, – s. 26

[70] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Guliyev, H. Azerbaycan Atasözlerinin İnternet Ortamında Değişim Süreci: Parodik Yorumlama // 5. Uluslararası Geleneksel ve Yöresel Değerler Sempozyumu (26-28 Ekim 2018). – Afyonkarahisar, Türkiye, – 2018, – s. 376-384

Eynşteynin folklorik obrazı Molla Nəsrəddini xatırladır. Nümunələrə nəzər yetirək:




URL –1[71]

“Uzaq qohumdansa, yaxın qonşu yaxşıdır” deyiminin parodik interpretasiyası olan bu nümunədə Eynşteyn müdrik ağsaqqal kimi yeni atalar sözü “yaradır”.

Digər iki nümunədə isə, Eynşteyn xalq arasında geniş yayılmış paremik ifadələrin modern dünyanın şərtlərinə uyğun yeni variantlarını “irəli sürür”:




URL – 2[72]




URL – 3[73]

---

[71]URL-1 https://www.facebook.com/photo/?fbid=1133072533393462&set=pb.100067988019362.-2207520000. PT: 29 mart 2016, QAT: 31 mart 2016

[72]URL-2 https://www.facebook.com/220716014659022/photos/a.985419608188655/1731455936918348/?locale=ru_RU PT: 29 yanvar 2018; QAT: 31 yanvar 2018

Göründüyü kimi, hər iki nümunə ənənəvi folklorun parodiyası üzərində qurulmuşdur. Beləliklə, İKT-nin hesabına folklor müasir dövrdə qlobal reaksiya və ünsiyyət fenomeninə çevrilməklə, qlobal folklor obrazlarının da yaranmasına səbəb olmuşdur. Albert Eynşteyn obrazı təbiəti etibarilə qlobal xarakterli olsa da, aktuallaşdığı məqamda yerli və lokal spesifika kəsb etməkdədir. Azərbaycandilli virtual mühitdə Albert Eynşteyn obrazı sosial tribuna funksiyasını həyata keçirir.[74].

Üçüncü fəslin "*Azərbaycandilli virtual mühitdə Molla Nəsrəddin lətifələri: dinamik sosial şərtlər və folklorik semantika*" adlanan üçüncü paraqrafında bildirilir ki, Azərbaycan sosio-mədəni mühitində tarixin müxtəlif məqamlarında Molla Nəsrəddin gülüşü və Molla Nəsrəddin üslubu xalqın özünüifadəsinin simvoluna çevrilmiş, Molla Nəsrəddin jurnalının simasında *"ədəbiyyatda və həyatda Nəsrəddinləşmə prosesi başlamışdır"*[75].

Azərbaycandilli virtual mühitdəki Molla Nəsrəddin lətifələrinin bir qismi məzmun etibarı ilə ənənəyə əsaslansa da, ifadə baxımından bir sıra fərqlər mövcuddur. Məsələn, nümunəni olduğu kimi təqdim edirik: *"Bir gün molla gedir oğurluğa getdiyi evdədə aynada reşotka olur bu laqondanı çıxardıb reşotkanı kəsəndə qonşu görüb deyirki neynirsən? Mollada deyirki musiqi çalıram qonşu deyir bəs niyə səs çıxmır Molla Əmi-də deyirki səsi sabah çıxacaq* 😀*"* [URL-4][76] .

---

[73] URL – 3
https://www.facebook.com/photo/?fbid=1062853810415335&set=pb.100067988019362.-2207520000. PT: 09 dekabr 2015; QAT: 17 fevral 2016

[74] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Virtual kommunikasiya mühitində folklor prosesləri və Albert Eynşteyn obrazı // "Dədə Qorqud" jur., , – 2017, – № 1, – s. 99-116;

[75] Habibbeyli, İ. Molla Nasreddin Dergisi'nde Nasreddin Hoca Gelenekleri // V. Nasreddin Hoca Seksiyon Bildirileri. – Ankara: Kültür Bakanlığı, – 1996, – s. 25

[76]URL-4
https://www.facebook.com/Capstagram.Official.Page/posts/519607471569797/
PT: 22 iyul 2016; QAT: 02.02.2023

Virtual Molla Nəsrəddin mətnlərinin digər bir qrupu isə ortaq maraq və dünyagörüş əsasında formalaşan sosial qruplar, virtual dünya “sakinləri” tərəfindən yaradılmışdır. Məsələn, *“bir gun molla nesreddinden sorusurlar nece yasin var? deyir 45 ustunden 10 il kecir ve yene molla nesreddinden sorusurlar nece yasin var? molla nesreddin deyir 45 sorusurlar niyr 10 il bundan evve dedin45 indi de deyirsen 45 molla nesreddin deyiR KISINI SOZU BI OLARHA AHAHAH”* (URL-5)[77]. Göründüyü kimi ənənədəki “40 yaş” “45”-lə əvəzlənmişdir. Bu isə onu göstərir ki, virtual Molla Nəsrəddin lətifələri ideoloji və yaxud idiokulturoloji olaraq ənənə ilə oppozisiya təşkil edir.

Virtual Molla Nəsrəddin lətifələrinin bir qrupu isə qeyri-etik məzmunludur. Məsələn, *“bir gun molla nesreddinnen sorusurlar ki, sen niye basivi qasiyanda papaqi cixartmirsan molla nesreddin de deyir ki, sen gotuvu qasiyanda salvari cixarirsan?????”*(URL-6)[78]. Virtual sosial mühitdə belə mətnlər anonim profillərdən paylaşıldığı üçün heç bir məhdudiyyət və çərçivə gözlənilmir. Beləliklə, daha çox yeniyetmə və gənclərin üstünlük təşkil etdiyi virtual sosial mühitdə yaradılan Molla Nəsrəddin lətifələri virtual sosial şərtlərin “məhsulu” olmaqla multikultural, multilinqvistik və hipertekstual spesifikaya malikdir[79].

Üçüncü fəslin “*İnternet folklorunda Dədə Qorqud obrazının desakrallaşması: virtual performansda folklorik mənalandırma”*

---

[77]URL-5 https://haqqinda.az/Azeri+Letifeler/13956-bir+gun+molla+nesreddinden+sorusurlar+nece+yasin+var-.html ; PT: 01.06.2013; QAT: 02.01.2023

[78]URL-6 https://haqqinda.az/Azeri+Letifeler/14058-bir+gun+molla+nesreddinnen+sorusurlar.html PT: 02.06.2013; QAT: 08.02.2020

[79] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Guliyev, H. Türk Kültüründe Kahraman Arketipinin İki Yüzü: Köroğlu ve Molla Nasrettin // VI. Uluslararası Köroğlu Sempozyumu (10-12 oktyabr 2016-cı il). “Köroğlu ve Türk Dünyası Destan Kahramanları”. Bildiri kitabı. – İstanbul, – 2016, – s. 393-407; Guliyev H. Psychoanalytic Approach to the Character of Mullah Nasreddin // “Journal of Ethnography and Folklore”, – 2020, – No. 1-2, – pp. 130-143

adlanan dördüncü paraqrafında vurğulanır ki, XX əsrdə Azərbaycanda, xüsusilə də yazıçı Anarın yaradıcılığında Dədə Qorqud mövzusu “*milli özünütəsdiq, milli oyanış və dirçəliş”*[80]in təzahürü kimi ortaya çıxmış, məhz bu ssenari əsasında çəkilmiş film Dədə Qorqudu populyarlaşdırmışdır. Yəni Azərbaycan sosio-mədəni mühitində kütləvi səviyyədə Dədə Qorqudla bağlı mövcud olan bilik kino industriyasından ötürülən bilikdir.

Azərbaycandilli virtual mühitdə Dədə Qorqud obrazı ilə bağlı qeydə aldığımız folklorik faktlara diqqət yetirək:




URL – 7[81]

Dialoq əsasında qurulmuş folklorik faktda diqqəti cəlb edən buradakı atalar sözlərinin biri-biri ilə ziddiyyət təşkil etməsidir. Əslində burada bir tərəfdən atalar sözlərinə, digər tərəfdən isə onu yaradan və yaxud ifadə edən statusa – müdrikə və ənənəvi müdrikliyə ironik münasibət sərgilənir.

Eposda Dədə Qorqudun igidlərə ad verməsi onun ən mühüm funksiyalarından biridir. İnternet mühitində Dədə Qorqudun advermə funksiyası, eləcə də verdiyi adlar heç bir halda ənənədəkinə bənzəmir:

---

[80] İsmayılova, Y. “Dədə Qorqud kitabı” və müasir Azərbaycan ədəbi düşüncəsi / Y.İsmayılova. – Bakı: Elm, – 2011, – s. 101

[81] URL –7 https://www.facebook.com/714051695282718/photos/salam-sabahiniz-xeyr-seher-seher-bele-bir-wekille-acin-oxuyun-ve-gulun-dilkin/1066772683343949/ PT: 24 mart 2016, QAT: 02.09.2021




URL – 8[82]

Feysbukda yayılan bu folklorik faktdan aydın olur ki, Dədə Qorqud *"inəkləri boğub öldürən"* şəxsi mükafatlandırmalı, ona ad qoymalıdır. Folklorik faktın Tvitter üzərindən yayılmış variantında isə bir qədər fərqli, daha "sərbəst" leksikon özünü göstərir:




URL – 9[83]

Sonuncu nümunədə (URL-10) əvvəlkindən fərqli olaraq Dədə Qorqudun dilində vulqar ifadə yer almışdır ki, bu da sosial şəbəkələrin təbiətindən qaynaqlanır.

Aparılan təhlil nəticəsində məlum olur ki, Dədə Qorqudu müdrik, ağsaqqal, yolgöstərən və s. statuslarda təqdim edən epos diskursu İnternetdə ənənəyə sosial protest zəminində lağ-lağı, zarafat diskursuna çevrilmiş, inanc məzmunlu bilik desakrallaşmışdır[84].

Üçüncü fəslin "*Ənənəvi mədəni yaddaşda və virtual sosial mühitdə seyid obrazı: folklorik məna yaradıcılığı kontekstində sakral*

---

[82] URL – 8 https://www.facebook.com/anar242 PT: 28 oktyabr 2018; QAT: 01.09.2021

[83] URL –9 https://twitter.com/Cahid_Sh/status/1047040195810463746 PT: 02 oktyabr 2018; QAT: 14 oktyabr 2018

[84] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Ənənənin yenilənməsi kontekstində Azərbaycandilli virtual mühitdə Dədə Qorqud obrazının parodik cizgiləri // 4. Uluslararası Dede Korkut Türk Kültürü, Tarihi ve Edebiyatı kongresinin kitabı. – Bakı, – 2021, – s. 281-295

*biliyin ironikləşməsi"* adlanan beşinci paraqrafında bildirilir ki, ənənəvi sosial-mədəni mühitdə seyidlər inanc mənbəyi kimi mənalandırılır. Seyidin cəddi və kəraməti barədə təsəvvürlər ona sakral mahiyyət bəxş edir. Lakin virtual sosial mühitdə seyid ad-işarəsi daha çox komik və ironik planda özünü göstərir. Məsələn:




URL –10[85]

Göründüyü kimi, burada inanca əsaslanan münasibətlə onu ələsalan mövqe arasındakı ziddiyyət ironik planda təcəssüm olunmuşdur. Yaxud digər iki nümunədə də seyid və seyidlik komik məzmun kəsb edir:




URL –11[86]




URL – 12[87]

[85]URL–10 https://zh-cn.facebook.com/Harmoniya-115463463175026/photos/a.115502926504413/596766591711375 PT: 14 iyul 2021; QAT: 30 oktyabr 2022

[86]URL –11 https://azvision.az/news/71186/-eynsteynin-demedikleri-maraqli-capslar.html PT: 29 sentyabr 2015; QAT: 30 oktyabr 2022

Göründüyü kimi, fərqli zaman intervalında ortaya çıxan bu iki folklorik faktda *"Ata tərəfim seyiddi"* və *"Bir tərəfim seyid nəslindəndi"* ifadələri, əslində seyidin cəddinə cari planda ironik reaksiyadır. Əslində burada mühüm məqam ənənəvi diskursun virtual diskursa transformasiyasıdır. R.Kamal yazır ki, *" "Kitabi-Dədə Qorqud" eposu islam ritorikasını qəbul etməklə, yeni mifoloji düşüncə tipi və ritorika tipi yaratmış olur"*[88]. Hesab edirik ki, İnternet folkloru kontekstində də seyidə və seyidliyə ironik münasibət bütövlükdə İnternet folklorunun fəlsəfi-ideoloji konseptini təşkil edən virtual diskursdan qaynaqlanır[89].

Üçüncü fəslin "*İnternet folkloru kontekstində ənənəvi qəhrəman qəlibinin parodikləşməsi və sosial protest: Koroğlu obrazı və "ata zarafatı"nın folklorik semantikası"* adlanan altıncı paraqrafında göstərilir ki, İnternet folklorunun sosial protest xarakteri, ənənəyə komik, ironik və parodik münasibəti virtual mühitin *"çoxsəsli", "karnavalistik"*[90] olması ilə birbaşa bağlıdır. Eyni zamanda rəqəmsal kommunikasiya texnologiyaları *fərdi və şəxsi şərhlərə*[91] şərait yaratdığından virtual sosial mühit şərtlərinə məxsus qəhrəman obrazı meydana çıxmaqdadır. S.Bruner gənclərin İnternetə olan böyük maraq və həvəsini *ərgənliyə mədəni keçidin*[92]

---

[87]URL-12 https://www.facebook.com/trollingaze/photos/a.194667387293309/2003348863091810/?type=3 PT: 24 oktyabr 2018 QAT: 28 noyabr 2018

[88] Kamal, R. "Kitabi Dədə Qorqud": nitq janrları və davranış poetikası / R.Kamal. – Bakı: Nurlan, – 2013, – s. 55

[89] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Guliyev, H. Geleneksel Kültürel Bellekte ve Sanal Sosyal Ortamda Seyyid İmgesinin Folklorik Anlamı // 5. Uluslararası Dede Korkut Türk Kültürü, Tarihi ve Edebiyyatı kongresi, 2-4 Eylül, – 2022. – Kongre kitabı, – 2 cildde, – I cild, – s. 567

[90] Erdoğdu, A. T., Yumruksuz, Ö. Sosyal medyanın doğası // UHAD, – 2021, – Sayı 6, – s. 174

[91] Howard, R.G. Electronic Hybridity: The Persistent Processes of the Vernacular Web // "Journal of American Folklore", – 2008, – Volume 121, – Number 480, – Spring, – pp. 192-218;

[92] Bronner, S.J. "Digitizing and Virtualizing Folklore" İn Folklore and the Internet // "Vernacular Expression in a Digital World". Ed. Trevor J. Blank. – Logan: Utah State University Press, – 2009, – p. 31

bir təzahürü olaraq şərh edir. Stereotiplərə qarşı protest, əslində, adət və ənənələrə, çərçivə və məhdudiyyətlərə qarşı protestin bir təzahürüdür. Bu baxımdan son dövrlərdə Azərbaycandilli virtual sosial mühitdə Koroğlu ilə bağlı komik və ironik planda meydana gələn bir sıra folklorik faktlar diqqəti cəlb edir:




URL – 13[93]

Folklorik mətnin məzmunundakı bu ziddiyyəti, əslində, ata-oğul konfliktinin işarəsi kimi qəbul etmək lazımdır. Zahirən gülüş yaradan bu zarafatın psixosematikası məhz eposdan bəlli olan konflikt paradiqması ilə bağlıdır.

Koroğlu obrazının İnternet folkloru kontekstində ənənəvi diskursdan fərqli xüsusiyyətlərinin izahı üçün Azərbaycandilli virtual mühitdən qeydə aldığımız *"ata zarafatı"* nümunələrinə diqqət yetirək: "esil dost ata zarafati eliyendir 😀 :D xD" [URL-14] [94], "yalniz Azerbaycanda kiminse bir biriyle ata zarafati varsa demeli canbratdilar :DDD" [URL-15][95].

Koroğlu dastanına və "kor kişinin oğlu" ifadəsinə psixoanalitik aspektdən yanaşan S.Qarayev yazır ki, " "*Koroğluluq"... həm də ataya qarşı işlənilən günahın nəticəsini qəhrəmanın daim öz*

---

[93]URL-14 https://www.facebook.com/yazarxeyallarim/photos/a.746006555515233/845729148876306/?type=3&theater PT: 04 sentyabr 2015; QAT: 14 oktyabr 2021

[94] URL-14 https://www.facebook.com/mamedov258/posts/165612266883240 PT: 02.02.2012; QAT: 14 oktyabr 2021

[95] URL-15 https://www.facebook.com/roofat.ateam/posts/245052492241558 PT: 07.02.2012; QAT: 14 oktyabr 2021

*üzərində daşıması kimi anlaşılmalıdır"*[96]. Bu baxımdan deyə bilərik ki, gənc oğlanlar arasındakı "ata zarafatı" da ata-oğul qarşıdurması kontekstində atanın qeyri-şüuri olaraq *neqativ mövqeyə yerləşdirilməsi* [97] və hakim gücdən məhrum edilməsidir. "Ata zarafatı", əslində oğlan uşaqlarının *şüurlu olaraq nə etdiklərini bilmədən* [98], ataya qeyri-şüuri şəkildə protestinin təzahürüdür. Beləliklə, İnternet folklorunda Koroğlunun komik, ironik və parodik planda mənalandırılması və virtual diskursiv planda gənclərin etdikləri "ata zarafatı" psixoloji olaraq, ataya protest vasitəsilə ərgənləşmənin – qəhrəmanlaşmanın mədəni metaforasıdır.[99]

Dissertasiyanın **"Dramatik situasiyalar və metaforik reaksiyalar kontekstində İnternet folkloru: fərdi qorxulardan karnavalistik emosiyalara"** adlanan dördüncü fəslində İnternet folklorunun karnavalistik təbiəti müasir dövrdə sosio-mədəni sferada geniş rezonans doğuran iki hadisə - pandemiya və müharibə kontekstində öyrənilmişdir.

Dördüncü fəslin *""Coronalore": "folk"-un yoluxucu xəstəlik qarşısında "lore" istehsalının sosio-psixoloji semantikası"* adlanan birinci paraqrafında vurğulanır ki, 2019-cu ilin dekabr ayında Çinin Hubey əyalətinin Uhan şəhərində meydana gələn, qısa müddətdə çoxsaylı insan ölümünə səbəb olan SARS-COV-2 (Covid-19) – Koronavirus pandemiyası, heç şübhəsiz ki, təkcə bioloji sistemdə deyil, eyni zamanda sosial-mədəni və sosial-psixoloji sferalarda da

---

[96] Qarayev, S. "Koroğlu dastanında ata-oğul konfliktinin psixoanalitik semantikası (Edip kompleksi kontekstində) / Xavəri S., Quliyev H. S.Qarayev. Folklorun Funksional Strukturu.– Bakı: Elm və təhsil, – 2016, – s. 373

[97] Qarayev S. Edip kompleksi kontekstində dəlilik: ataya protestin mədəni-psixoloji effekti // "Dədə Qorqud" jur., – 2019, – № 3, – s. 76

[98] Dundes, A. Gallus as Phallus: A Psychoanalytic Cross-Cultural Consideration of the Cockfight as Fowl Play // "The Meaning of Folklore: The nalytical Essays of Alan Dundes". Edited and İntroduced by Simon J.Bronner. – Logan: Utah State University Press, – 2007, – p. 311

[99] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Guliyev, H. İnternet Folkloru Bağlamında Parodik Kahraman Algısı: Sosyal Protesto ve "Yetişkinliğe Kültürel Geçiş" // "Milli Folklor", – 2022, – Sayı 17, – s. 109-125

öz təsirini göstərmişdir. İnformasiya sferasının fasiləsiz şəkildə Koronavirus xəbərləri ilə “doldurulması” xəstəliyin total olaraq qorxu yaratmasına, onun epidemik miqyasdan pandemik həddə çatmasına gətirib çıxarmışdır. T.A.Çayuk və O.V.Dunayevskaya bu kontekstdə kütləvi informasiya vasitələrinin sosial mühitə təsirini *“qorxu mədəniyyətinin”* təşviqi və *“ictimai diskursun dəyişməsi”*[100] kimi şərh edirlər. H.Stevart yazır ki, virusun təqdimində istifadə olunan dil, söz və ifadələr *“real həyatdan çox, fəlakət filmlərinin ssenarisini xatırladır”* [101] . Bu isə bioloji yoluxmadan öncə informasiya virusu ilə psixoloji yoluxma, pandemiya ilə sinxronizasiya olunmuş infodemiyanın ortaya çıxmasına səbəb olmuşdur.

Koronavirus pandemiyası zəminində diqqəti cəlb edən ən mühüm məsələlərdən biri məhz sosial medianın təsiri ilə ortaya çıxan *konspirativ nəzəriyyələr* (ingiliscə “conspiracy theory”, türkcə “komplo teorisi”, azərbaycanca “sui-qəsd nəzəriyyələri”) oldu. Solmaz Başak medianın sosial mühitə təsirindən danışarkən qeyd edir ki, *“Kütləvi informasiya vasitələri insanları düşüncə meyllərindən yayındırır, faktları olduğu kimi görməyə imkan vermir”*[102] . Əlbəttə ki, belə bir şərait hər cür informasiyanın – həqiqət və yaxud yalanın sürətlə yayılmasına, eləcə də insanların münasibət və rəylərinin dəyişdirilməsinə təsir edir. Nəticədə, fantaziya üzərində qurulan folklorik düşüncə ilə müəyyən məqsəd və şüurlu yaradıcılıq əsasında inşa edilən yalan arasında çulğalaşma baş verir. Dramatik situasiya bəşəriyyətin – dünyanın qeyri-müəyyənlik,

---

[100] Chaiuk, T.A., Dunaievska, O.V. Fear Culture in Media: An Examination on Coronavirus Discourse // “Journal of History Culture and Art Research”, – 2020, – 9 (2), – p. 187

[101] Stewart H. The language of fear used in media reports about the coronavirus is stoking prejudice. *Euronews*, https://www.euronews.com/2020/02/10/the-language-of-fear-used-in-media-reports-about-the-coronavirus-is-stoking-prejudice-view Son baxılma tarixi: 10 iyun 2021

[102] Solmaz, B. Kitle İletişim Araçlarında Kurgulanan Gerçeğin Boyutları. Teorik ve Uygulamalı Bir Çalışma // “Selçuk İletişim”, – 2004, Num. – 2, – s. 53

naməlumluq qarşısında öz fantaziyasını işə salan "mifoloji çağdakı" insanın – uşağın verdiyi reaksiyaları aktuallaşdırır. Eyni vəziyyəti mifoloji düşüncədə qoyulan suallarda[103],*"mif və qloballaşma"*[104] problemi kontekstində də görmək olur. Necə ki, uşaq özünün infantil həzz və qorxuları, arzu və ehtiyacları kontekstində sosial gerçəkliyi mənimsəyir və fantaziya dünyasına uyğun şəkildə qurur, eləcə də bəşəriyyət Koronavirus pandemiyası qarşısında eyni münasibət sərgiləyir. Koronavirusla bağlı yaranan şəhər əfsanələri, konspirativ yanaşma və hekayətlər, yalan xəbər və şayiələr, əslində, "*müasir insanın inandırıcı mətnlər yaradaraq qeyri-müəyyənliyi aradan qaldırma cəhdi*"[105]nin qeyri-şüuri mədəni yaradıcılıq kontekstində ortaya çıxan təzahürləridir. Biz bu prosesi dramatik situasiya qarşısında – "dar ayaqda" "folk"-un "lore" istehsalı hesabına virusa qarşı sosial-psixoloji antivurus yaratması kimi xarakterizə edirik. Hesab edirik ki, yoluxucu xəstəlik qarşısında tərksilah olunan bəşəriyyət rasional, rəsmi tibdən öncə, emosional planda virusa qarşı psixoloji vaksinasiyanı məhz mədəni yaradıcılıq, konkret desək, folklor – "coronalore" vasitəsi ilə həyata keçirmişdir.

Koronavirus pandemiyasının karnavalistik təbiətini ("*hamının həm iştirakçı, həm də tamaşaçı" olduğunu, "lağ-lağı" əhval-ruhiyyəsi və s.-ni*) müşahidə edən Q.Quliyev xəstəliyin faciəviliyinin artması fonunda lağ-lağı əhvalının daha da yüksəldiyini yazır: "*məlum olur ki, insan birliyinin ən səmərəli yolu fərdin özünü, başqasını ələ salmaqdır: zarafat edirəm, deməli varam!"*[106]. Sosial

---

[103] Qafarlı, R. Mif və nağıl (Epik ənənədə janrlararası əlaqə) / R.Qafarlı. – Bakı: ADPU-nun nəşri, – 1999, – s. 151-179; Qafarlı, R. Azərbaycan-türk mifologiyası (qaynaqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası) / R.Qafarlı. – Bakı: ADPU-nun nəşri, – 2010, – s. 363-371

[104] Qafarlı, R. Mifologiya. 6 cilddə. I cild. Mifogenez: rekonstruksiya, struktur, poetika / R.Qafarlı. – Bakı: Elm və təhsil, – 2015, – s. 270-282

[105] Duman, M. Yarasa Çorbası: Koronavirüs Hakkında Modern Çağın Mitleri ve Şehir Efsaneleri // "Milli Folklor", – 2020, – Sayı 127, – s. 62

[106] Quliyev Qorxmaz. Facebook statusu. 10 sentyabr 2017-ci il. https://www.facebook.com/qorxmaz.quliyev.399/posts/pfbid028RQ2c8NsZwTMN

medianın *"çoxsəsli karnavalistik"*[107] bir mühit olduğunu nəzərə alsaq, koronavirus pandemiyası zəminində ortaya çıxan folklorik nümunələrin məhz karnaval mühitində yarandığını, yoluxucu xəstəliyin doğurduğu psixoloji narahatlığa verilən reaksiyaların vahid semiotik proses xarakteri daşıdığını, bəşəriyyətin bu mərhələdə eyni ritmə köklənən – "halay çəkən", "yallı gedən" kollektivi xatırlatdığını deyə bilərik. Eyni zamanda *"lağ-lağı ovqatı"* psixoloji gərginlik və narahatlıqlara verilən kollektiv gülüş reaksiyasıdır. Çünki gerçəkliyin elə bir rakursu yoxdur ki,*"gülüşün potensial obyekti"*[108] olmasın. Koronavirus pandemiyası zamanı ortaya çıxan lətifə, zarafat, lağ-lağı, konspirativ nəzəriyyə, şəhər əfsanəsi, memlər və s.-ni dramatik situasiya qarşısında kollektiv düşüncənin özünüqoruma instinktinin metaforik təzahürləri hesab etmək olar.

Azərbaycandilli virtual mühitdə Koronavirus pandemiyası ilə bağlı meydana gələn folklorik faktlara baxaq:




URL – 16[109]

---

KKHRCikyQ5BD4NtTxGPQWfWzQJQoQomcWE7uwJhupY9r2EGraS9l son baxılma tarixi: 25 sentyabr 2019

[107] Erdoğdu, A. T., Yumruksuz, Ö. Sosyal medyanın doğası // UHAD, – 2021, – Sayı 6, – s. 174

[108] Дандес А.Анекдоты Освенцима / А.Дандес А. Фольклор: семиотика и/или психоанализ (сб. ст.). Пер. с англ.; Сост. А.С. Архипова. – Москва: Вост. лит., – 2003, – с. 178

[109] URL-16 https://www.facebook.com/photo.php?fbid=227166851669772&set=p.227166851669772&type=3 PT: 24 fevral 2020, QAT: 17.04.2020




URL – 17[110]

Göründüyü kimi, birinci nümunə maska geyilməsinə, ikinci isə "evdəqal" çağırışına folklorik reaksiyadır. Əgər birinci nümunədə maska məsələsi normal şəkildə qəbul edilirsə, ikinci faktda evdə qalmaqdan həddindən artıq kökələn Mona Lizanın komik təsviri verilmişdir.

Azərbaycandilli virtual mühitdə çox populyar olan Albert Eynşteyn obrazının da Koronavirus kontekstində diqqət mərkəzinə gəlməsi olduqca təbiidir:




URL – 18[111]

Bu tipli faktlardan aydın olur ki, Koronavirus pandemiyasının sosial həyatda yaratdığı gərginlik kollektiv düşüncədə zamanın, təqvimin müəyyən əlamətlər hesabına işarələnməsi və xatırlanması (*sel gələn il, quraqlıq olan il* və s.) texnologiyasına yoluxucu xəstəliklə bağlı təsəvvürlərin də əlavə olunmasına gətirib çıxarmışdır.

---

[110] URL-17 https://www.facebook.com/116403451767145/photos/a.3576021405805315/3576021312471991/ PT: 06 aprel 2020, QAT: 10.04.2021

[111]URL-18 https://www.facebook.com/photo/?fbid=3397793503574369&set=pb.100063496479926.-2207520000. PT: 14 mart 2020, QAT: 11 aprel 2020

Pandemiyanın ölkəmizədə yayıldığı ilkin aylarda Azərbaycandilli virtual mühitdə konspirativ məzmunlu folklorik faktlar da meydana gəlmişdir:




URL – 19[112]

Koronavirusla bağlı folklorik faktlar arasında karantin rejimi ilə bağlı qadağalara folklorik reaksiyalar xüsusilə diqqəti cəlb edir. Pandemiyanın yayıldığı vaxtlarda *"çölə çıxma qadağası"* və *"evdəqal" çağırışı* sosial mühitdə daha çox rezonans verməyə başlamışdı:




URL – 20[113]

Beləliklə, Koronavirus pandemiyasının Azərbaycandilli virtual mühitdə doğurduğu folklorik faktlar yoluxucu xəstəliyə verilən metaforik-simvolik reaksiyanın təzahürləridir[114].

---

[112]URL-19 https://www.facebook.com/photo/?fbid=3660769903943393&set=pb.100063496479926.-2207520000. PT: 21 iyun 2020 QAT: 29 iyun 2020

[113]URL-20 https://www.facebook.com/photo/?fbid=3449389618414757&set=pb.100063496479926.-2207520000. PT: 31 mart 2020, QAT: 11 aprel 2020

[114] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Guliyev, H. Azerbaycan Dilli Sanal Sosyal Ortamda Koronavirüs Pandemisinin Folklorik Tezahürleri // Международная научно-теоретическая конференция «Научное наследие Е. Д.

Dördüncü fəslin *"İkinci Qarabağ müharibəsi Azərbaycandilli İnternet folklorunun predmeti kimi: müharibənin metaforik-simvolik mənalar kontekstində analizi"* adlanan ikinci paraqrafında vurğulanır ki, 27 sentyabr – 10 noyabr 2020-ci il tarixləri ərzində baş verən Ermənistan-Azərbaycan müharibəsi Azərbaycandilli virtual mühitdə yeni məzmunlu folklor dalğasının meydana gəlməsinə təkan verdi. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin müharibə dövründə xalqa müraciətləri, cəbhədə əldə olunan nailiyyətlər, düşmənin məhv edilməsi, işğalçıların qovulması ilə bağlı nitqləri virtual sosial mühitdə geniş rezonans doğurmuş, qısa müddətdə kollektiv mədəni reaksiyanın folklorik təzahürləri ortaya çıxmışdır.

Maraqlı məqam ondan ibarətdir ki, Koronavirus pandemiyası və müharibə oxşar metaforaların ortaya çıxmasına səbəb olmuşdur. Nümunələrə baxaq:




URL-21[115]



URL-22[116]

---

Турсунова в контексте методологических проблем современной гуманитарной науки» (22 апреля 2023). – Алматы, Казахстан, – 2023, s. 88-97;

[115]URL-22 https://www.facebook.com/photo/?fbid=3397793503574369&set=pb.100063496479926.-2207520000. PT: 14 mart 2020, QAT: 11 aprel 2020

Göründüyü kimi, hər iki folklorik fakt müxtəlif situasiyalarda ortaya çıxsa da, sintaktik struktur baxımından eyniyyət təşkil edir. Bu isə onu deməyə əsas verir ki, pandemiya və müharibə psixoloji genezisi etibarı ilə vahid nöqtədən qaynaqlandığı üçün qeyri-şüuri olaraq eyni effektlərin, folklorik təzahürlərin ortaya çıxması ilə müşayiət olunmuşdur.

Müzəffər Ali Baş Komandanın 44 günlük Vətən müharibəsi dövründə xalqa müraciət nitqləri, eləcə də müharibədən sonrakı müsahibə və çıxışlarının virtual-sosial mühitdə ən çox populyarlaşan ifadəsi, heç şübhəsiz ki, *“Nə oldu, Paşinyan?”, “Bəs vermirdin?”, “Bəs, Cəbrayıla yol çəkirdin, Paşinyan?”* olmuşdur. Virtual kommunikativ mühitdə müxtəlif variantları ortaya çıxan həmin ifadə qısa müddətdə “mem”-ə çevrilmişdir. Müharibə dövründə və ondan sonrakı vaxtlarda “Nə oldu, Paşinyan?!” memi ətrafında şeirlər, musiqili meyxanalar, paremik ifadələr ortaya çıxmışdır.

Müharibə dövründə çətin duruma düşən Ermənistan Respublikasının baş naziri Nikol Paşinyanın müxtəlif şəxslərə sürəkli zəng etməsi ilə bağlı mətbuatda yayılan məlumatlar sosial şəbəkələrdə lətifə, gülüş mövzusuna çevrilmiş, bununla bağlı xeyli sayda “caps”-lar – real fotolar üzərində dəyişiklik edilən folklorik reaksiyalar ortaya çıxmışdır:




URL-23[117]

[116]URL-23 https://www.facebook.com/photo/?fbid=4019900448030335&set=pb.100063496479926.-2207520000 PT: 19 oktyabr 2020, QAT: 20 noyabr 2020

[117] URL-24 https://www.facebook.com/photo.php?fbid=2565844363727712&set=p.2565844363727712&type=3 PT: 04 oktyabr 2020 QAT: 27 may 2021

Netnoqrafik analiz əsasında deyə bilərik ki, bu nümunələr Müzəffər Ali Baş Komandanın 04 oktyabr 2020-ci il tarixində xalqa müraciəti zamanı dediyi: *“Paşinyan hər gün bir dünya liderinə zəng edir”* [118] cümləsinin folklorik planda rezonansıdır. Məhz bundan sonrakı günlərdə “*Tanımadığınız nömrədən zəng gəlsə ...”* ifadəsi konkret olaraq, müxtəlif şəxslərin real-tarixi fotoları üzərində dəyişiklik edilməklə, yəni folklorik reaksiya modelinə transformasiya olunmaqla, mədəni yaradıcılığa çevrilmişdir. Nümunələrə baxaq:




URL – 24[119]




URL –25[120]

Göründüyü kimi, Vətən müharibəsi dövründə baş verən siyasi-ictimai gərginliyin mədəni yaradıcılıq planındakı rezonansı gündəlik folklorik diskurs şəklində ortaya çıxmışdır. Həmin nümunələr,

---

[118]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciəti, 04 oktyabr 2020, mənbə: https://president.az/az/articles/view/41713

[119] URL-25 https://www.facebook.com/AzerbaycanVetenimm/photos/a.267552533739200/977174262777020/ PT: 05 oktyabr 2020, QAT: 27 may 2021

[120] URL-26 https://twitter.com/LBalakishiyeva/status/1325310444878360577/photo/1 PT: 10 noyabr 2020, QAT: 27 may 2021

əslində sosial mediadakı məlumatların kollektiv yaradıcılıqdan keçməklə metaforikləşməsidir.

44 günlük Vətən müharibəsi ilə bağlı folklorik faktlarda qənimət götürülən tanklar mövzusu geniş populyarlıq qazanmışdır:




URL – 26[121]

Məşhur Azərbaycan xalq mahnısı – "İrəvanda xal qalmadı" ilə mətnlərarası əlaqə kontekstində ortaya çıxan bu folklorik reaksiya müharibə dövründə Azərbaycan ordusunun əldə etdiyi qənimətlərin ekspressiv təcəssümüdür.

Beləliklə, İkinci Qarabağ müharibəsi Azərbaycandilli virtual mühitdə folklorik yaradıcılıq prosesinə təkan vermiş və müharibə mövzusu metaforik-simvolik məna qazanmışdır.

Dissertasiyanın **"Texno-kulturoloji və sosio-texnoloji şəraitdə rəqəmsal folklorun metodoloji analizi problemləri: dinamik yaradıcılıq, böyük verilənlər ("big data") və çoxparametrli analiz"** adlanan beşinci fəslində yeni şəraitdə rəqəmsal folklorun metodoloji analizinin elmi-nəzəri əsasları təhlil edilmiş, İnternet folklorunun toplanılması və təhlili üçün bir sıra perspektiv təkliflər irəli sürülmüşdür.

Beşinci fəslin *"Folklorun idiokulturoloji funksionallığı kontekstində kibersosial qrupların öyrənilməsinin nəzəri-metodoloji aspektləri: kibercinayətkar qruplar nümunəsində"* adlanan birinci paraqrafında bildirilir ki, İnternet folkloru texno-kulturoloji və sosio-texnoloji parametrlərə malik olduğundan onun həm nəzəri, həm də

[121] URL-27 https://www.facebook.com/Zurnatv.az/photos/a.428101277365392/1734135030095337/?type=3&theater PT: 08 oktyabr 2020; QAT: 10 noyabr 2021

tətbiqi problemlərinə multidissiplinar kontekstdə yanaşma zəruridir. Tətbiqi folklorşünaslığın yeni bir istiqaməti kimi, şərti olaraq, "informasiya təhlükəsizliyi və folklor" problemi çərçivəsində kibersosial qrupların, xüsusilə də, kibercinayətkarlıqla məşğul olan sosial qrupların analizi, həmin qrupları birləşdirən "ortaq dəyər"lərin üzə çıxarılması olduqca vacib və əhəmiyyətli məsələlərdəndir. Lakin problemin digər tərəfi folklorun rəqəmsallaşdırılması, strukturlaşdırılması və süni intellektin tətbiqi əsasında çoxparametrli analizi ilə bağlıdır.

"İnformasiya təhlükəsizliyi və folklor" probleminin aktuallığı onunla şərtlənir ki, müasir dövrdə yalan və şayiə tipli informasiyalar sosial media platformalarında sürətlə yayılmaqdadır. M.Koiva və L.Vesik yazırlar ki, "*aldatmalar kömpüter folklorunun ən sürətli yayılan qismidir*"[122]. Müvəqqəti dövretmə imkanı qazanan həmin resurslar ənənəvi folklor modellərində yaradılmaqla *folklorik forma və funksiyaya*[123] malikdirlər. İnternetin istifadəçilərə yaratdığı anonimlik imkanı bir tərəfdən ünsiyyətə mane ola biləcək psixoloji baryerlərin aradan qalxmasına şərait yaradırsa, digər tərəfdən də naməlumluq hesabına *"İnsanlar gündəlik həyatda cəsarət edə bilmədikləri hərəkətləri"* edir və *"qanuni təqibdən daha asan şəkildə qaçmaqdadırlar"*[124]. Bu baxımdan İnternetdə meydana çıxan kibercinayətkarlıq hallarının aşkarlanması, kibersosial qrupların üzə çıxarılmasında folklordan istifadənin böyük potensialı vardır. Hazırda fərd və ya kibersosial qrupların identifikasiyası imkanlarının yüksəldilməsi üçün səsin, şəklin, dəsti-xəttin, üslubun (leksikonun) analiz olunması olduqca aktual məsələdir. Təbii dilin kompüter emalı (NLP) texnologiyalarından istifadə etməklə müəyyən şəxsə və yaxud

---

[122] Kõiva, M., Vesik, L. Contemporary Folklore, Internet and Communities at the beginning of the 21st Century // Media & Folklore. Contemporary Folklore IV. Edited by Mare Kõiva. – Tartu: ELM Scholarly Press, – 2009, – p. 109

[123] Blank, T.J. Folklore and the Internet: The Challenge of an Ephemeral Landscape // "Humanities 7", – 2018, – No. 2, – 50, p. 1

[124] Arklan, Ü., Rençber, H. İllegalitenin Kaçış Alanı Olarak Sosyal Medya // "Current Debates in Public Relations Cultural and Media Studies", – 2017, – Sayı 9, – s. 36

sosial qrupa məxsus mətnlər analiz olunur. M.Berry və J.Koqan yazırlar ki, *"kiberzorakılar və kiberyırtıcılar tərəfindən kimliyin maskalaması və aldatmada istifadə olunan oxşar taktikalarla qarşılaşırıq"*[125]. Müəlliflərin qeyd etdiyi *oxşar taktikaların* əsasında isə kollektiv reaksiya və münasibətə əsaslanan folklorik ifadə, reaksiya və davranışları müşahidə etmək mümkündür. Çünki hər bir fərd formalaşdığı mühitin dil, folklor və etnoqrafik ənənələrini qeyri-şüuri olaraq özündə yaşadır. Nəzərə almaq lazımdır ki, hər bir sosial qrup ortaq ənənələr, dəyərlər – *idiokulturoloji*[126] spesifika əsasında təmərküzləşir. Beləliklə, fərdin sosial qrupa aidiyyəti sosial qrupun üzərində təmərküzləşdiyi "lore" ilə, yəni biliklə müəyyənləşir. Deməli, kibersosial qrupun qarşıya qoyduğu məram və məqsəddən asılı olmayaraq, folklorşünaslıq baxımından bizi həmin qrupu formalaşdıran dəyərlər, şərikli bilik, ortaq ənənə və davranışlar, spesifik dil və üslub maraqlandırır. Bu baxımdan İnternet istifadəçilərinin mənsub olduğu folklor mədəniyyəti (folklorik düşüncə modelləri, deyim və ifadələr) kibercinayətkar sosial qrupların üzə çıxarılmasında çox əhəmiyyətli faktora çevrilir. Beləliklə, sosial-antropoloji folklorşünaslığın "xalq" və "bilik" münasibətlərinə söykənən sosial qrup anlayışını İKT-nin verdiyi imkanlarla – *kompyuter texnologiyaları və analitik metodlarla*[127] birləşdirərək kibersosial qrupların analizində multidissiplinar yanaşma irəli sürmək mümkündür.

Şübhəsiz ki, kibercinayətkar sosial qrupların müəyyənləşdirilməsində folklordan istifadənin perspektivləri rəqəmsal folklor databazalarının vəziyyətindən, onların çoxparametrli kompüter

---

[125] Berry, M.W., Kogan J. Text Mining: Applications and Theory // Wiley A. John Wiley and Sons, Ltd., – Publication, – 2010, – p. 150

[126] Fine, G.A. Small Groups and Culture Creation: The İdioculture of Little League Baseball Teams // "American Sociological Review", – 1979, – No 44, – p. 734

[127] Alıquliyev, R., Niftəliyeva, G. E-dövlətin analizi texnologiyaları: text mining və sosial şəbəkələr" // "Ekspress informasiya" ("İnformasiya texnologiyaları" seriyası). – Bakı: İnformasiya Texnologiyaları nəşriyyatı, – 2016, – s. 19

analizləri üçün adekvatlığından, bütövlükdə isə İnternet mühitində belə resursların bolluğundan və bir sıra digər məsələlərdən birbaşa asılıdır. Beləliklə, multidissiplinar yanaşma nəticəsində müəyyən etdik ki, kibercinayətkarlıq, bədniyyətli fəaliyyətlər və gizli sosial qrupların aşkarlanmasında fərdin və yaxud sosial qrupun davranış və leksikonun folklorik modellərinin qurulması və bunun əsasında onun aid olduğu sosial qrupun müəyyənləşdirilməsi mümkündür. Bu yanaşma eyni zamanda İnternet mühitində virtual folklor resurslarını yaradan kibersosial qrupların müəyyənləşdirilməsi üçün də tətbiq oluna bilər[128].

Beşinci fəslin *"Rəqəmsal folklor resurslarının strukturlaşdırılması və metodoloji analizi perspektivləri"* adlanan ikinci paraqrafında vurğulanır ki, dünyada rəqəmsal folklor databazalarının formalaşdırılması sahəsində müəyyən qədər təcrübə və nümunələr vardır. Macar folklorşünası E.İlyefalvi folklor mətnlərindən təşkil olunmuş mövcud rəqəmsal databazaları təhlil edərək yazır ki, burada əsasən iki istiqamətdə sistemləşdirmə aparılmışdır. *Bunlardan birincisi, folklorun janrlar üzrə, digəri isə toplayıcı (və ya toplayıcı şəbəkəsi) üzrə sistemləşdirmədir*[129]. Kompüter folklorşünaslığı üzrə tanınmış mütəxəssis T.R.Tangherlini rəqəmsal folklor databazasının hazırlanmasında 4 istiqamətə xüsusi diqqət yetirilməsini qeyd edir: "*1) toplama və arxivləşdirmə, 2) indeksləşdirmə və klassifikasiya, 3) vizuallaşdırma və naviqasiya, 4) analiz"*[130]. Göründüyü kimi, T.R.Tangherlini tərəfindən irəli sürülən 4 istiqamət özündə ilkin olaraq, folklor resurslarının toplanılması və

---

[128] **Paraqrafda əldə edilmiş nəticələr üçün bax:** Quliyev, H. Folklor İnformasiya Təhlükəsizliyində və İnformasiya Təhlükəsizliyi Folklorda // "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri" IV respublika konfransının Əsərləri (Bakı, 14 dekabr 2018-ci il). – Bakı, – 2018, – s. 95-101

[129] Emese, I. The Theoretical, Methodological and Technical Issues of Digital Folklore Databases and Computational Folkloristics // "Acta Ethnographica Hungarica", – 2018, – 63(1), – p. 218

[130] Tangherlini, Timothy R. The Folklore Macroscope: Challenges for a Computational Folkloristics // "Western Folklore". – 2013, – 72(1), – p. 8

arxivləşdirilməsini, indeksləşdirmə və klassifikasiyanı – yəni müəyyən təsnifat prinsipləri əsasında qruplaşdırmanı, vizuallaşdırma və naviqasiyanı – yəni folklor faktını əyaniləşdirəcək və coğrafi məkana bağlayacaq informasiyanın təmin edilməsini, ən nəhayət isə analizi ehtiva edir.

Milli rəqəmsal folklor databazasının formalaşdırılması məsələsindən danışarkən qeyd etməliyik ki, uzun illər ərzində ölkəmizdə toplanıb tərtib edilən dəyərli folklor topluları folklor nümunələrinin, sadəcə olaraq, kitablar – antologiyalar şəklində bir araya cəmlənməsi, elektron formatda İnternetdə yerləşdirilməsindən ibarət olmuşdur. Sahədən qeydə alınan folklor resurslarının böyük əksəriyyəti rəqəmsallaşdırılsa da, əsasən strukturlaşdırılmamış olduğundan onların kömpüter emalında bir sıra çətinliklər ortaya çıxır. Bununla əlaqədar olaraq, ilkin verilənlər halında olan rəqəmsal folklor resursu onu xarakterizə edən əlamətlərlə (yəni haradan qeydə alınması, söyləyicisinin kim olması, mətnin növü, janrı, süjet və motivi və s.) təmin olunmaqla yenidən pasportlaşdırılmalı və strukturlaşdırılmalıdır. Təbii ki, folklor mətnini xarakterizə edən əlamətlərin sayı nə qədər çox olarsa, çoxparametrli analiz imkanları da o qədər artmış olar. Çünki *“rəqəmsal databazaların ən mühüm üstünlüklərindən biri də məhz onların çoxölçülü analizlər üçün gərəkli olmasıdır”*[131].

Qeyd olunan prinsiplər əsasında Azərbaycan folkloruna məxsus rəqəmsal folklor resurslarının çoxsaylı parametrlər üzrə strukturlaşdırılaraq vahid bazada birləşdirilməsi və onlayn platformada yerləşdirilməsi intellektual analiz üçün geniş perspektivlər açacaqdır. Ən əsası isə strukturlaşdırılmış, çoxparametrli milli rəqəmsal folklor databazası kollektiv düşüncənin məhsulu olan “lore”-də gizlənən dərin mahiyyətin analizinin statistik verilənlər əsasında arqumentəşdirilməsi üçün böyük imkanlar açacaqdır. E.İlyefalvi bu tipli databazanın əhəmiyyətini onun

---

[131] Emese, I. The Theoretical, Methodological and Technical Issues of Digital Folklore Databases and Computational Folkloristics // “Acta Ethnographica Hungarica”, – 2018, – 63(1), – p. 219

"*...daha geniş araşdırma suallarına cavab vermək*"[132] imkanı ilə əsaslandırır. Əgər biz Azərbaycan nağıllarının strukturlaşdırılmış milli rəqəmsal databazasını hazırlasaq, Azərbaycan nağıl süjetlərinin, motivlərinin statistik təsvirini və kəsişmə nöqtələrini, eyni və yaxud müxtəlif adla, lakin eyni məzmunda olan nağıl mətnlərinin folklor mühitləri üzrə yayılma vəziyyətini, nağıl söyləyicilərinin gender diferensiyası (kişi və qadın), bioqrafik məlumatları ilə mətn tipləri arasındakı münasibətləri və s. kimi folklorşünaslıq baxımdan əhəmiyyət kəsb edən sualları cavablandıra bilərik. Nağıllara tətbiq etdiyimiz bu yanaşmanı daha geniş şəkildə Azərbaycan folklor resurslarının milli rəqəmsal databazası üzərində kifayət qədər genişləndirmək mümkündür. Yeri gəlmişkən onu da qeyd edək ki, Azərbaycan folklorşünaslığında İ.Rüstəmzadə tərəfindən Azərbaycan nağıl süjetlərinin Aarne-Tompson sistemi əsasında göstəricisi tərtib olunmuşdur[133]. Əlbəttə ki, Azərbaycan nağıllarının süjet göstəricisi milli rəqəmsal folklor databazasının hazırlanmasında mühüm bir təcrübə və mənbə kimi istifadə oluna bilər. Həmçinin süjet göstəricisinin informasiya sistemi kimi rəqəmsal formatda işlənilməsi, intellektual axtarış imkanları ilə təmin olunması ondan istifadəni daha effektiv edə bilər.

Milli rəqəmsal folklor resursları databazasının intellektual analizi məsələləsində mühüm bir istiqamət İnternet mühitində meydana gələn rəqəmsal folklor faktlarının təhlilidir. Burada İnternetdə meydana gələn rəqəmsal folklor faktlarının virtual mühitdə qeydə alınması və öz təbiətinə müvafiq olaraq araşdırılması məsələləri xüsusilə diqqəti cəlb edir.

Məlumdur ki, İnternet folklorunun spesifikliyi onun analizi və bununla əlaqədar bir sıra məsələlərə yanaşmanı fundamental olaraq dəyişir. Xüsusilə də, İnternet folklorunun müəyyənləşdirilməsi,

---

[132] Emese, I. Textualization Strategies, Typological Attempts, Digital Databases: What is the Future of the Comparative Charm Scholarchip? // "Incantatio An International Journal on Charms, Charmers and Charming", – Tartu, – 2017, – Issue 6, – p. 49

[133] Rüstəmzadə, İ. Azərbaycan nağıllarının süjet göstəricisi / İ.Rüstəmzadə. – Bakı: Elm və təhsil, – 2013, – 368 s.

toplanılması, arxivləşdirilməsi kimi məsələlər klassik folklorşünaslıq metod və yanaşmaları çərçivəsindən kənara çıxmaqdadır. Bu isə öz növbəsində "*klassik toplamadan zaman, məkan, qaynaq şəxslər, data əldə etmə üsulu, data formaları və icra mühiti ilə fərqlənən" "rəqəmsal toplama metodu"nun*[134] ortaya çıxarılmasına, perspektivdə bu tipli metodların nəzəri və praktiki baxımdan dəqiq çərçivələrinin müəyyənləşdirilməsinə zərurət yaratmışdır. U.Durmaz yazır ki, *"Yeni mühitə (internet nəzərdə tutulur – H.Q.) uyğun olaraq şəkillənən mədəni ünsürlərin müəyyənləşdirilməsi, təsnifi, dəyərləndirilməsi və müəyyən formada cari vəziyyətin necə olduğunun aşkarlanması üçün dönəmə müvafiq yeni yanaşmalar lazımdır"*[135]. Rəqəmsal toplama metodunun müxtəlif aspektlərini geniş şərh edən müəllif virtual mühitdə ortaya çıxan folklor faktlarının toplanılması üçün *"mövzu etiketləri - Hashtag"*-lərdən istifadəni və özünün təklif etdiyi *"yemləmə"* üsulunu vurğulayır[136]. Qeyd edək ki, mövzu etiketləri-başlıqları və yaxud həştəqlər vasitəsi ilə İnternet folkloru nümunələrinin toplanılması və təhlil təcrübəsi geniş tətbiq olunmaqdadır və biz də bu üsuldan istifadə etməklə Koroğlu obrazı və "ata zarafatı" motivi üzərində araşdırma aparmış və maraqlı nəticələr əldə etmişik[137]. Şübhəsiz ki, hər iki üsul İnternet folklorunun toplanılması üçün yararlıdır. Beləliklə, hazırkı

[134] Durmaz, U. Derleme Ortamı Olarak Dijital Kültür Sahası ve Yeni Bir Derleme Metodu: Dijital Derleme Yöntemi" // Salgın Hastalıkların Sosyal Hayata Etkisi ve Kültürümüzde Koranavirüs Vakası. Ed. Bekir Şişman. – Çanakkale: Paradigma Akademi, – s. 420

[135] Durmaz, U. Derleme Ortamı Olarak Dijital Kültür Sahası ve Yeni Bir Derleme Metodu: Dijital Derleme Yöntemi" // Salgın Hastalıkların Sosyal Hayata Etkisi ve Kültürümüzde Koranavirüs Vakası. Ed. Bekir Şişman. – Çanakkale: Paradigma Akademi, – s. 419

[136] Durmaz, U. Derleme Ortamı Olarak Dijital Kültür Sahası ve Yeni Bir Derleme Metodu: Dijital Derleme Yöntemi" // Salgın Hastalıkların Sosyal Hayata Etkisi ve Kültürümüzde Koranavirüs Vakası. Ed. Bekir Şişman. – Çanakkale: Paradigma Akademi, – s. 425

[137] Guliyev, H. İnternet Folkloru Bağlamında Parodik Kahraman Algısı: Sosyal Protesto ve "Yetişkinliğe Kültürel Geçiş" // "Milli Folklor", – 2022, – Sayı 17, – s. 109-125

mərhələdə İnternet folklorunun yeni metodoloji yanaşmalar əsasında toplanılması, təsnifi və intellektual analizi özündə kompleks elmi-nəzəri və praktiki problemləri ehtiva edir. Bu istiqamətdə kifayət qədər boşluqlar mövcuddur və perspektivdə tətbiqi folklorşünaslıq çərçivəsində bu problemlərin həllinə böyük ehtiyac vardır. Belə bir reallıq perspektivdə İnternet folklorunun araşdırılması üçün süni intellektin tətbiqini zəruri edir. Hesab edirik ki, məhz süni intellekt texnologiyalarının – “data mining” və “text mining” üsullarının tətbiqi ilə virtual sosial şəbəkələrdə, forum və bloqlarda, açıq virtual sözlük və ensiklopediyalarda yaranan İnternet folkloru nümunələrinin avtomatik aşkarlanması və qeydə alınması mümkün olacaqdır.

Dissertasiyanın **“Nəticə”** hissəsində aparılmış tədqiqat ümumiləşdirilir və əldə olunmuş nəticələr nəzəri tezislər şəklində təqdim olunur:

1. Sosial-antropoloji yanaşmanın folklorşünaslığın nəzəri-metodoloji çərçivəsini genişləndirməsi kontekstində folklorun müasir sosial-mədəni proseslərlə əlaqəsi öyrənilmiş və Azərbaycan folklorşünaslığına yeni elmi-nəzəri və tətbiqi istiqamətlər daxil edilmişdir;

2. Kommunikasiya şəkilləri (şifahi, yazılı, elektron; səsli, görüntülü və s.) kontekstində folklorun sosial dinamikası (kənd, şəhər, virtual aləm) izlənilmiş, xalq biliyinin transformasiyası prosesində mühit və şərtlərlə yanaşı, sosio-psixoloji və sosio-texnoloji faktorların korrelyativ təsiri müəyyənləşdirilmişdir;

3. Folklorun sosial-antropoloji kontekstdə xalq (“folk”) və bilik (“lore”) paradiqmalarında dərkindən irəli gələn nəzəri-metodoloji yanaşmalar əsasında həm “folk”-un sosial qurum kimi təşkil olunmasında, həm də “lore”-nin məzmun və formasının müəyyənləşməsində sosial-demoqrafik proseslərlə bərabər, sosial media texnologiyalarının rolu aşkarlanmışdır;

4. İnternet folklorunun şifahilik, anonimlik, variantlılıq və ənənəvilik xüsusiyyətlərinin spesifikası üzə çıxarılmışdır;

5. İnternet folklorunun performativ spesifikası (virtual folklor performansı) araşdırılmış, interaktiv ünsiyyət və iştirakçı sosial

mühit (web 2.0. texnologiyası) şərtləri daxilində folklorun yaranmasında iştirak edən subyektlərin həm aktiv söyləyici, həm də dinləyici (“prosumer”–söyləyici//dinləyici) olduğu aşkarlanmışdır;

6. İnternet folklorunun nəzəri-metodoloji problemlərinin araşdırılması ilə bağlı mövcud təcrübəyə əsaslanaraq, “Azərbaycandilli virtual folklor mühiti” anlayışı irəli sürülmüş və burada meydana gələn folklorik faktların həm forma, həm də məzmun baxımından mahiyyəti müəyyənləşdirilmişdir;

7. İnternet folkloru kontekstində Azərbaycandilli virtual folklor mühitində meydana gələn qlobal obraz və motivlər, yeni ənənə və mənalar müəyyənləşdirilərək onların stimulyativ genezisi və semantikası izah olunmuşdur;

8. Müəyyənləşdirilmişdir ki, Azərbaycandilli İnternet folkloru yarandığı mühitin sosio-psixoloji xarakterinə, fəlsəfi-ideoloji konsept və spesifikasına müvafiq olaraq, ənənəvi düşüncə konseptləri ilə oppozisional münasibət səviyyəsinə malikdir. Bu oppozisionallıq sosial protest – ənənənin inkarı, ənənədən qaçma və ənənəyə alternativ yaratma davranışlarını özündə ehtiva etdirir;

9. Azərbaycandilli virtual mühitdə meydana çıxan atalar sözləri və paremik deyimlərin virtual sosial ünsiyyətdə cari sosial gerçəkliyin parodik interpretasiyası kimi aktiv rol oynadığı müəyyənləşdirilmişdir;

10. Azərbaycandilli virtual folklor mühitində Albert Eynşteyn obrazının meydana çıxdığı aşkarlanmış, bu obrazın müdriklik konsepti çərçivəsində Dədə Qorqud və Molla Nəsrəddin obrazlarının emosional bazasında formalaşdığı üzə çıxarılmışdır;

11. Müəyyən olunmuşdur ki, Azərbaycandilli virtual folklor mühitində Molla Nəsrəddin obrazı müasir sosial-mədəni proseslərdə öz aktuallığını qoruyub saxlamış, virtual sosial şərtlər çərçivəsində multikultural, multilinqvistik və hipertekstual spesifika qazanmışdır;

12. İnternet folkloru kontekstində Dədə Qorqud obrazının təhlilindən aydın olur ki, ənənədə müdriklik və sakral düşüncə konsepti daxilində təsvir olunan bu obraz rəqəmsal performativ diskursda desakralizasiya olunmuş, yeni idiokulturoloji faktorlar rakursundan mənalandırılmışdır;

13. İnternet folklorunda seyid obrazı təhlilə cəlb olunmuş, ənənəvi diskursun virtual diskursa transformasiyası kontekstində sakral – inanc əsaslı biliyin ənənəyə protest çərçivəsində ironikləşdiyi müəyyənləşdirilmişdir;

14. İnternet folklorunun analizi əsasında müəyyənləşdirilmişdir ki, virtual kommunikativ mühit personal performativ diskursa əsaslandığından, burada məna müəyyənləşdirici mövqe kollektiv biliyin fərd üzərindən ifadəsidir;

15. Azərbaycandilli virtual folklor mühitinin metaforik-simvolik mənalar üzrə sosial-antropoloji və psixonalitik təhlili nəticəsində müəyyənləşdirilmişdir ki, virtual mühitdə yeniyetmə və gənc oğlanlar arasında mövcud olan “ata zarafatı” motivi və Koroğlu obrazı ilə bağlı komik və ironik ifadələr Edipal kontekstdə ata-oğul konfliktindən qaynaqlanır və oğulların atalara qarşı sosial protestinin folklorik təzahürüdür;

16. Kritik sosial proseslər və dramatik situasiyalar kontekstində İnternet folklorunun təhlili nəticəsində aşkarlanmışdır ki, Koronavirus pandemiyası qorxuların sublimasiyası və özünüqoruma reaksiyası kimi yeni folklor yaradıcılığı dalğasına təkan vermiş və Azəbaycandilli virtual mühitdə yoluxucu xəstəliklə bağlı yeni metaforalar ortaya çıxmışdır;

17. Sosial gərginlik yaradan dramatik situasiyalarda folklorun stereotip düşüncə və baxışları təcəssüm etdirməsi ilə bağlı ənənəvi yanaşma əsasında müharibə diskursunun folklorik münasibət sferası araşdırılmış və aydınlaşdırılmışdır ki, bu situasiyada qarşı tərəfə emosional münasibət onu qəhrəman tipologiyası üçün xarakterik olan kişilik atributlarından məhrumetmə semantikası daşıyır;

18. Tətbiqi folklorşünaslığın elmi-nəzəri və praktiki problemlərinin araşdırılması nəticəsində müəyyən olunmuşdur ki, texno-kulturoloji və sosio-texnoloji parametrlərə malik olan İnternet folklorunun dinamik təbiətinin araşdırılması sosial-antropoloji yanaşmalara İKT-nin tətbiqini, virtual folklorik verilənlərin eyni zamanda “data mining” (eləcə də “text mining”) texnologiyaları üzrə mövcud olan metodiki alətlərlə analizini də zəruri edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin dərc olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Türk kültüründe kahraman arketipinin iki yüzü: Köroğlu ve Molla Nasrettin. VI. Uluslararası Köroğlu Sempozyumu. 10-12 oktyabr 2016-cı il, "Köroğlu ve Türk Dünyası Destan Kahramanları". Bildiri kitabı. İstanbul, 2016, s. 393-407

2. Folklor və İnternet: sosial-mədəni proseslərin virtual mühitə transformasiyası problemləri / S.Xavəri, S.Qarayev. Folklorun funksional strukturu: multidissiplinar kontekst. – Bakı: Elm və təhsil, – 2016, s. 192-360 s.

3. Virtual kommunikasiya mühitində folklor prosesləri və Albert Eynşteyn obrazı // "Dədə Qorqud" jur., – AMEA Folklor İnstitutu, – 2017, – № 1, – s. 99-116

4. Folklor və İnternet: problemin nəzəri-metodoloji aspektləri // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", – AMEA Folklor İnstitutu, – Bakı, Elm və təhsil, – 2017, – № 2, – s. 55-65

5. Folklor texnologiya və mədəniyyət münasibətləri kontekstində: "neqativ" və "pozitiv" baxış // "Filologiya məsələləri" jur., – Bakı, Elm və təhsil, – 2017, – № 20, – s. 329-335

6. Müasir dövrün folklor prosesləri: kənddən şəhərə, şəhərdən virtual dünyaya "köç" // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", – AMEA Folklor İnstitutu, – 2018, – № 1 (52), – s. 74-83

7. Folklorun yazı koduna keçidi: şifahi sözün texnolojiləşməsi // Naxçıvan Universiteti, "Elmi Əsərlər" (İqtisadiyyat, filologiya, tarix, coğrafiya, pedaqogika və psixologiya, riyaziyyat), – 2018, – № 2 (9), s. 96-102

8. İnternet mühitində folklor proseslərinin analizi: ilkin nəzəri yanaşmalar // "Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər", – AMEA Folklor İnstitutu, – 2018, – № 2 (53), – s. 74-83

9. Folklor İnformasiya Təhlükəsizliyində və İnformasiya Təhlükəsizliyi Folklorda // "İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri" IV Respublika Konfransının Əsərləri (Bakı, 14 dekabr 2018-ci il). – Bakı, – 2018, – s. 95-101

10. Rəqəmsal mərhələdə folklorun təməl prinsiplərinə baxış: problemin “xalq (folk) kimdir?” və “bilik (lore) nədir?” sualları ətrafında qoyuluşu // Naxçıvan, “Axtarışlar” jur. (folklor, ədəbiyyat, dil, sənətşünaslıq və tarix), – 2018, – № 3, – s. 21-29

11. Virtual folklorun araşdırılması təcrübəsi: nəzəri və tətbiqi yanaşmalar // “Dədə Qorqud” jur., – AMEA Folklor İnstitutu, – 2018, – № 1 (62), – s. 100-112

12. Azerbaycan Atasözlerinin İnternet Ortamında Değişim Süreci: Parodik Yorumlama // 5. Uluslararası Geleneksel ve Yöresel Değerler Sempozyumu (26-28 Ekim 2018). – Afyonkarahisar, Türkiye, – 2018, – s. 376-384

13. Virtual kommunikativ mühitdə folklor: şifahilik məsələsi // “Gənc tədqiqatçı” jur., – 2018, – IV cild, – № 2, – s. 151-156

14. Virtual sosial mühitdə folklorik ənənə // “Dədə Qorqud” jur., – AMEA Folklor İnstitutu, – 2018, – № 2, – s. 79-88

15. Virtual mühitdə folklor: ənənə və kommunikasiya / H.Quliyev. – Bakı: Sabah, – 2018, – 256 s.

16. Virtual sosial şəbəkələrdə qrupların folklorik müəyyənliyi: milli kimlik və qlobal obrazlar /Xavəri, S., Quliyev, H., Qarayev S. // “Dədə Qorqud” jur., – AMEA Folklor İnstitutu, – 2019, – № 3 (66), – s. 79-90

17. Virtual sosial qupların folklorik kimliyi kontekstində milli kimlik məsələsinə baxış // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Folklor milli kimlik kontekstində” mövzusunda beynəlxalq elmi konfransın materialları. – Bakı, – 2019, – s. 267-272

18. Sosiotexnoloji və kulturoloji proseslər kontekstində İnternet folklorunun aktual metodoloji problemləri // “Folklorşünaslıq” jur., – 2019, – № 2 (6), – s. 75-83

19. Milli mentalitet və stereotiplər kontekstində fərdi məlumatlara həssaslığın folklorik təzahürləri // “İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri” V respublika konfransının əsərləri. – Bakı: İnformasiya texnologiyaları nəşriyyatı, – 2019, – s. 25-30

20. İnternet folklorunda anonimlik problemi // “Dədə Qorqud” jur., – AMEA Folklor İnstitutu, – 2019, – № 2, – s. 81-94

21. Folkloric Dynamics In The Azerbaijani Language Virtual Sphere // “The Reports of National Academy of Sciences of Azerbaijan”, – 2019, – Volume LXXV, – № 1, – pp. 86-91

22. Molla Nəsrəddin obrazının psixogenezisi: gülüş işlənilmiş günahın cəzası kimi // “Dədə Qorqud” jur., – AMEA Folklor İnstitutu, – 2019, – № 4 (67), – s. 93-105

23. Collective Reaction and Creation of a Hypertextual İmage in a Virtual Environment // The Collection of Materials XXII «Akhanov Readings» İnternational Scientific and Methodological Workshop Philosophy of Al-Farabi: Culture, Language and Literature» is Dedicated to the 1150th Anniversary of the Al-Farabi, 1 June 2020, Almaty – Taraz/ – Алматы: Қазақ университеті, – 2020. – pp. – 277-286

24. Psychoanalytic Approach to the Character of Mullah Nasreddin // “Journal of Ethnography and Folklore”, – 2020, – No. 1-2, – pp. 130-143

25. The Use of Functional Opportunities of Virtual Folklore in Lifelong Learning and Its Psychological Aspects. Khaveri S, Garayev S. Guliyev H. // “5th International Conference On Lifelong Education And Leadership For All”. – Baku, – July 09-11, 2019, – Sakarya: ICLEL Conferences Sakarya University Faculty of Education, – 2019, – pp. 1123-1130

26. Возможности использования фольклора в информационной безопасности / Алигулиев, Р.М., Кулиев, Х.В. // « Информационное общество», – 2020, – (5), – 70-79

27. İnformasiya təhlükəsizliyi və folklor: rəqəmsal mərhələdə gizli sosal qruplarin müəyyənləşdirilməsində folklorun rolu // “Dədə Qorqud” jur., – AMEA Folklor İnstitutu, – 2020, – № 4 (71), – s. 47-59

28. Azərbaycan folklorşünaslığı yeni elmi paradiqma və reallıqlar qarşısında: İnternet folkloru problemi // Gənc Tədqiqatçıların IV Respublika Elmi-praktiki konfransının

materialları, – 9 aprel 2021-ci il. – Bakı: Azərbaycan Universiteti, – 2021, – s. 11-14
29. Müasir təlim texnologiyalarının tətbiqində folklordan istifadənin nəzəri aspektləri / Xavəri, S., Quliyev, H., Qarayev S. // "Dədə Qorqud" jur., – AMEA Folklor İnstitutu, – 2021, – № 2 (73), – s. 39-47
30. Ənənənin yenilənməsi kontekstində Azərbaycandilli virtual mühitdə Dədə Qorqud obrazının parodik cizgiləri // 4. Uluslararası Dede Korkut Türk Kültürü, Tarihi ve Edebiyatı kongresinin kitabı. – Bakı, – 2021, – s. 281-295
31. Mifdən internet folkloruna yaradıcı fantaziyanın simvolik təzahürü: problemə Ramazan Qafarlının "mif və qloballaşma" konseptində baxış // "Ziyalı işığında" Ramazan Qafarlı-70 Beynəlxalq İctimai və Mədəni Elmlər konfransı (15-16 iyul 2021), – Bakı, – 2021, – s. 224-233
32. Azərbaycan nağılları: obrazlar və funksiyalar / S.Qarayev, H.Quliyev. – Bakı: Savad, – 2021, – 456 s.
33. İnternet Folkloru Bağlamında Parodik Kahraman Algısı: Sosyal Protesto ve "Yetişkinliğe Kültürel Geçiş" // "Milli Folklor", – 2022, – Sayı 17, – s. 109-125
34. Geleneksel Kültürel Bellekte ve Sanal Sosyal Ortamda Seyyid İmgesinin Folklorik Anlamı // 5. Uluslararası Dede Korkut Türk Kültürü, Tarihi ve Edebiyyatı kongresi, 2-4 Eylül, – 2022. – Kongre kitabı, – 2 cildde, – I cild, – s. 567
35. İnternet folklorunda Dədə Qorqud obrazının desakralizasiyası: virtual performansda folklorik mənalandırma // "Dədə Qorqud" jur., – 2022, – № 2, – s. 3-27
36. Texnoloji proseslərin təsiri ilə dildə transformasiyalar: sosiopsixoloji faktorlar, folklorik effektlər və linqvistik təzahürlər // Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə və Beynəlxalq Ana dili gününə həsr olunmuş "Azərbaycan dilinin İKT problemləri, İKT-nin Azərbaycan dili problemləri" adlı respublika elmi-praktiki konfransının materialları (21-22 fevral 2023-cü il). – Bakı: İnformasiya Texnologiyaları nəşriyyatı, – 2023, – s. 69-78

37. Azerbaycan Dilli Sanal Sosyal Ortamda Koronavirüs Pandemisinin Folklorik Tezahürleri // Международная научно-теоретическая конференция «Научное наследие Е. Д. Турсунова в контексте методологических проблем современной гуманитарной науки» (22 апреля 2023). – Алматы, Казахстан, – 2023, s. 88-97

38. İnternet folklorunda variantlılıq: dinamik sosial proseslər və cari maraqlar // "6. Uluslararasi Dede Korkut Türk Kültürü, Tarihi ve Edebiyati Kongresi", – Kongre Kitabı, – 20-21 July, – 2023, – Guba: Iksad Global, – s. 392-397

39. Embodiment of the Manhood in Folklore: Keeping Secret from Women in Azerbaijan in the Context of a Real and Virtual Social Environment /Guliyev,H., Garayev S. / "Issues in Ethnology and Anthropology", – 2023, – Vol. 18, – No. 4, –s. 1195-1219

Dissertasiyanın müdafiəsi 04 dekabr 2024-cü il tarixində saat 14$^{00}$ AMEA Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AR Prezidenti yanında AAK-ın və AMEA Folklor İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 noyabr 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 28.10.2024
Kağızın formatı: 60x84 $^{1}/_{16}$
Həcm: 86 949 işarə
Tiraj: 100